# QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 062 (6262) **10 aprel** 2021-ci il. **Qiymәti 40 qәpik**

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# "Vaksinlərin ədalətsiz bölüşdürülməsi dünya gündəmini zəbt edən məsələdir"



*Bax 2*

## *Prezident İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasının prezidentini qəbul edib*

## Hikmət Hacıyev qazaxıstanlı nazir müavini ilə müzakirə aparıb



Qazaxıstanın informasiya və ictimai inkişaf nazirinin müavini Asxat Oralov Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə görüşüb.

*Bax 4*

## İrəvan-Bakı reysi: Azərbaycanın mövqeyi daha sərt, daha qətiyyətlidir!

Ըստ որոշ լուրերի, Բաքվից եկած ինքնաթիռը գերիներ չի բերել

*Bax 7*

22:32, 08.04.2021



## Əli Kərimli və trolları tüpürdüklərini belə yaladılar

*Bax 8*



AXCP sədri Əli Kərimlinin bilavasitə nəzarəti altında olan partiyanın sosial şəbəkələrdəki trollar qrupu, eləcə də informasiya resursları əllərinə düşmən hər bir imkandan maksimum...

## Azad olunmuş ərazilərdə modul tipli yataqxanalar quraşdırılır

*Bax 8*



## "5-ci kalonun" pusquda yatan satqın köpəkləri...

*Bax 13*



Vaxtilə Lenin deyirdi ki, kapitalizmə xas olan lənətə gəlmiş maddi maraq prinsipi sosializm üçün...

## Əhməd İsmayılov: "Media haqqında" qanun layihəsi üzərində işlər yekunlaşmaq üzrədir

*Bax 4*



"Media haqqında" qanun layihəsi üzərində işlər yekunlaşmaq üzrədir. SİA-nın məlumatına görə, bunu jurnalistlərə açıqlamasında Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov deyib...

## Xəbərdarlıq: "Distant təhsilə keçid təhsilin keyfiyyətini aşağı salır"



*Bax 7*

## Koçaryan Paşinyana qarşı yeni bir iddia qaldırıb



*Bax 8*

## Koronavirus peyvəndi xərçəng xəstələri üçün risklidirmi?



*Bax 16*

# “Vaksinlərin ədalətsiz bölüşdürülməsi dünya gündəmini zəbt edən məsələdir”

*Prezident İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasının prezidentini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da BMT Baş Assambleyasının 75-ci sessiyasının prezidenti Volkan Bozkırı qəbul edib. AZƏRTAC xəbər verir ki, Volkan Bozkırı salamlayan Prezident İlham Əliyev dedi:***

- Xoş gəlmisiniz. Sizinlə dəfələrlə görüşmüşdük, Bakıda siz dəfələrlə olmusunuz. Amma bu dəfə BMT Baş Assambleyasının prezidenti kimi səfər edirsiniz. Çox gözəl hadisədir. Şadam ki, Azərbaycana səfər edirsiniz. Bildirməliyəm, biz fəxr edirik ki, qardaş ölkənin nümayəndəsi BMT Baş Məclisinin prezidentidir. Bilirəm ki, COVID-ə baxmayaraq, 75-ci sessiya uğurla davam edir və burada sizin böyük səyləriniz vardır.

Eyni zamanda, bizə göstərdiyiniz dəstəyə görə təşəkkürümü bildirirəm. Bilirsiniz ki, biz COVID-lə bağlı bir neçə təşəbbüslə çıxış etdik. Türk Şurasının Zirvə görüşünü, Qoşulmama Hərəkatının Zirvə görüşünü keçirdik və BMT Baş Assambleyasının COVID-lə bağlı xüsusi sessiyasının keçirilməsinə də nail olduq və sizin də böyük dəstəyiniz oldu. Hesab edirəm, ondan sonrakı hadisələr göstərdi ki, doğrudan da bu, indi gündəlikdə duran önəmli məsələlərdən biridir. Çünki vaksin millətçiliyi, vaksinlərin ədalətsiz bölüşdürülməsi bu gün artıq dünya gündəmini zəbt edən bir məsələdir. Azərbaycan ilk ölkələrdən idi ki, bu məsələni açıb qaldırdı. Bu gün biz çalışırıq ki, bu ədalətsizliyi aradan qaldıraq. Eyni zamanda, COVID dönəmində biz 30-dan çox ölkəyə maddi və humanitar yardım göstərmişik və bu fəaliyyəti davam etdirmək əzmindəyik.

BMT qurumları ilə bizim ənənəvi sıx əlaqələrimiz olubdur və bu əlaqələr davam edir. Müharibədən sonrakı dövr ərzində təmaslar daha fəal olub və bu təmaslar davam etdiriləcək və əlbəttə ki, bundan sonra BMT dünyanın aparıcı qurumu kimi postmünaqişə dövründə də fəal olmalıdır. Mən dəfələrlə bildirmişdim ki, Dağlıq Qarabağ münaqişəsi həll olunub, Azərbaycan bunu həll edib və 30 ilə yaxın kağız üzərində olan qətnamələri yerinə yetirib və artıq münaqişə tarixdə qalıbdır. İndi isə yeni dövr başlayıb - quruculuq dövrü, bərpa dövrü. Artıq buna da start verilmişdir və BMT-nin bütün qurumları ilə, o cümlədən biz artıq UNESCO ilə sıx təmasdayıq. UNESCO ilə gedən müzakirələr əsnasında missiyanın göndərilməsi nəzərdə tutulur. Əslində, biz münaqişə dövründə dəfələrlə UNESCO-ya müraciət etmişdik ki, faktaraşdırıcı missiyanı işğal edilmiş bölgələrə göndərsin. Çünki bizdə olan məlumata görə, orada bizim tarixi, dini, mədəni abidələrimiz ermənilər tərəfindən dağıdılmışdır və biz istəyirdik ki, beynəlxalq təşkilatlar, o cümlədən bu məsələ ilə bilavasitə məşğul olan UNESCO gəlsin və bunu təsdiq etsin. Əfsuslar olsun münaqişə dövründə bu təklifimiz cavabsız qalmışdır, ancaq münaqişədən sonra indi missiyanın göndərilməsi gözlənilir. Biz bunu alqışlayırıq. Çünki azad edilmiş torpaqlarda erməni vəhşiliyi, vandallığı göz qabağındadır. Nə qədər çox beynəlxalq təşkilatlar bunu öz gözləri ilə görsələr, münaqişə ilə bağlı, Ermənistanın işğalı ilə bağlı dünya birliyində təsəvvür o qədər də daha geniş olar.

Bir sözlə, hörmətli Volkan bəy, biz bu istiqamətdə işlərimizi davam etdirəcəyik. Bir daha Azərbaycana gəldiyiniz üçün sizə təşəkkürümü bildirmək istəyirəm. Bilirəm ki, siz bu yaxınlarda Türkiyəyə, Vətəninizə səfər etmisiniz və Azərbaycana, yenə də Vətəninizə səfər edirsiniz.

BMT Baş Assambleyasının 75-ci sessiyasının prezidenti Volkan Bozkır dedi:

- Hörmətli cənab Prezident.

Həqiqətən də Azərbaycana BMT Baş Assambleyasının sədri olaraq ilk səfərimi etməkdən böyük məmnunluq və qürur duyuram. Azərbaycan BMT üçün çox önəmli bir ölkədir. Zati-alinizin pandemiya dövründə rəhbərlik etdiyi BMT-nin xüsusi sessiyası həqiqətən tam zamanında və son dərəcə önəmli nəticələr ortaya qoyan bir toplantı oldu. Sizin aylarla sürən səyləriniz, əslində, mənə sədrlik etmək qürurunu bəxş etdi və bu baxımdan Sizə təşəkkür borcluyam.

Həmçinin Qoşulmama Hərəkatına sədrliyi son dərəcə müvəffəqiyyətlə həyata keçirirsiniz. Bu, BMT üçün çox önəmli bir təşkilatdır və onun sədri olmaq da xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan fəaliyyətinizə görə Sizə təşəkkür etmək məqsədilə gəldim.

BMT Baş Assambleyasının bir türk sədri olaraq da Azərbaycana gəlmək mənim üçün xüsusi bir xoşbəxtlik və qürur mənbəyidir. Bəhs etdiyiniz bütün məsələləri həqiqətən Nyu-Yorkdan diqqətlə izləyirik.

# “Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir”

*Prezident İlham Əliyev Rusiya Federasiyasının Baş prokurorunu qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnovu qəbul edib.***

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu. Bildirildi ki, ölkələrimizin prokurorluq orqanları arasında həyata keçirilən qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrimizin genişlənməsi işinə töhfə verməklə bərabər, ölkələrimiz qarşısında duran təhdidlər, müasir çağırışlar, cinayətkarlığa qarşı mübarizə işində mühüm rol oynayır.

Söhbət zamanı əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu, perspektiv məsələlər müzakirə edildi.



# Xalqın uğur simvoluna çevrilən LİDER



**_2003-cü il oktyabrın 15-də Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizə dövlət başçısı seçilməsindən 17 ildən artıq vaxt ötür. Xalqımız 2008-ci il oktyabrın 15-də, 2013-cü il oktyabrın 9-da və 2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərində də Ulu Öndər Heydər Əliyev siyasətinin layiqli davamçısına, əmin-amanlığa, tərəqqiyə və quruculuğa səs verdi. 2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrdə yeni nailiyyətlərlə müşahidə olunan sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub._**

Azərbaycanın uğurlu inkişafı təmin edilib və qarşıda duran bütün əsas vəzifələr uğurla icra edilib. Bunun təməlində düşünülmüş siyasət, həyata keçirilən islahatlar və dövlət proqramları dayanır. Ötən dövrdə uğurlu inkişaf tarixini yaşayan Azərbaycanda həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının qəbulu və qarşıya qoyulan vəzifələrin uğurlu icrası nəticəsində abadlaşan bölgələrimiz, inkişaf edən ölkəmiz Azərbaycanın dinamik inkişafının göstəriciləridir.

Prezidentin müntəzəm olaraq bölgələrə etdiyi səfərlərdə yeni obyektlər açılır, infrastruktur layihələri icra olunur. Elm və təhsilə, səhiyyəyə, hərbiyə, mədəniyyətə, sosial-iqtisadi məsələlərə, bir sözlə bütün sahələrə dövlət başçısının xüsusi diqqəti və qayğısı müşahidə olunur.

Ötən on yeddi il, aydın şəkildə göstərdi ki, İlham Əliyev Prezidentliyi dövründə ölkənin həyatının bütün sahələrində verdiyi vədlərin hamısını yerinə yetirmiş və sosial problemləri həll etmişdir. Son 17 ildə həyata keçirilən iqtisadi siyasətin əsasən, sosialyönümlü mahiyyət daşıması bir sıra reallıqlarla şərtlənərək, cəmiyyətin sosial sifarişini əks etdirmişdir. Aztəminatlı vətəndaşların sosial müdafiəsi, istehsalçı və istehlakçının maraqlarının uzlaşdırılması Cənab İlham Əliyevin prezidentlik dövrünü səciyyələndirən prioritet istiqamətlərdən biri kimi diqqəti çəkir.

## AZƏRBAYCAN MÜASİR DÖVRÜN QLOBAL ÇAĞIRIŞLARINA DƏSTƏK VERİR

Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində, ölkə iqtisadiyyatının mühüm sahəsi olan qeyri-neft sektorunun inkişafında, eləcə də, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafının təmin edilməsi istiqamətində davamlı işlər görülür. Neft kapitalının insan kapitalına çevrilməsi strategiyasına uyğun olaraq, humanitar sahələrin inkişafı istiqamətində gərgin iş aparılıb. Təhsil sisteminin daha da təkmilləşdirilməsinə dair tədbirlər həyata keçirilib, dünyanın mötəbər universitetlərində minlərlə Azərbaycan gəncinin təhsil alması üzrə Dövlət Proqramı gerçəkləşdirilib, yeni universitetlər açılıb, təhsildə özəl sektor formalaşıb.

Müasir dövrün qlobal çağırışlarına dəstək verən Azərbaycan dünya dövlətləri və beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq imkanlarına malikdir. Müstəqil Azərbaycanın yürütdüyü siyasət ölkəmizin etibarlı və strateji tərəfdaş kimi nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib.

Bu gün, məhz uğurlu iqtisadi inkişaf strategiyasının nəticəsidir ki, Azərbaycan modeli dünyada tanınır və qəbul edilir. Bütün bu və ya digər amillər müstəqillik dövründə Azərbaycanın əldə etdiyi nailiyyətlər - tarixi gerçəkliklərdir. Müasir Azərbaycanda nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, ölkənin dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı tədbirlər gerçəkləşib. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması onun dünya miqyasında artan nüfuzundan və uğurlu xarici siyasətindən xəbər vermiş oldu. Dünyanın 155 ölkəsi Azərbaycana səs verdi. Əlbəttə, xalqımız görülən işləri, əldə olunan nailiyyətləri hər zaman dəyərləndirir və ən yüksək səviyyədə qiymətləndirir.

## QARABAĞIN MƏNFUR DÜŞMƏNLƏRDƏN, İŞĞALÇI ERMƏNİLƏRDƏN AZAD OLUNMASI GERÇƏKLƏŞDİ

Son illər ölkəmizin iqtisadi qüdrətinin artması milli ordumuzun möhkəmlənməsinə də geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Bu gün Azərbaycanda istehsal olunan bir çox hərbi məhsullar ordumuzun potensialının gücləndirilməsində əsas amillərdən biridir. Ölkənin hərbi qüdrəti və üstünlüyü 2016-cı ilin aprel döyüşlərində nümayiş etdirildi. Bu hərbi əməliyyatlar ən müasir hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələrinin döyüş əməliyyatlarında real üstünlüyə malik olduğunu nümayişi oldu. Vətənə, dövlətə bağlı olan Azərbaycan Ordusu Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərinə sancdığı Azərbaycan bayrağı ordumuzun hansı gücə sahib olduğunun təzahürüdür. Əlbəttə ki, Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu döyüş meydanında erməniyə dərs verdi. Mükəmməl texnologiyamız, döyüş ruhumuzun yüksəkliyi, xalq-iqtidar birliyi, həmrəylik Azərbaycanın qalib dövlət kimi adını tarixə yazdı. Tarixi qələbənin qazanılmasında Ali Baş Komandan, Müzəffər Azərbaycan Ordusudur. 44 gün davam edən Vətən müharibəsində qəhrəmanlıq göstərən vətən oğulların şücaəti, mücadiləsi milyonlarla insanlara qələbə sevincini yaşatdı. Prezident İlham Əliyevin özünün də dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu - Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi.

Xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən bu tarixi gündə gənclərimiz vətənpərvərlik nümayiş etdirdilər. “Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib”, deyən Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, on yeddi ildir ki, mən Azərbaycanın rəhbəriyəm: “Bu illər ərzində yetişən insanlar bu torpaqları azad etdilər. Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi.”

Bu gün Azərbaycan qalib dövlətdir. Xalq-iqtidar birliyi bizi zəfərə, qələbəyə apardı. Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasını ilə nəticələndi. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. 30 il ərzində xarabazara çevrilmiş torpaqlarımızda canlanma müşahidə olunmaqdadır.

Dövlətimizin kənd təsərrüfatında, kosmik sənayedə, hərbi sənayedə, səhiyyədə, təhsildə və s. əldə etdiyi uğurlar, eləcə də, beynəlxalq səviyyədə qurduğu münasibətlər, davamlı inkişaf, məhz Azərbaycan Prezidenti İlham Əliyevin müdrik, uzaqgörən siyasətinin nəticəsidir. Cənab Prezident müdrik qərarlarıyla xalqımızın uğur simvoluna, qurucu Liderinə çevrilib.

***Zümrüd BAYRAMOVA***

# Hikmət Hacıyev qazaxıstanlı nazir müavini ilə müzakirə aparıb



Qazaxıstanın informasiya və ictimai inkişaf nazirinin müavini Asxat Oralov Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə görüşüb. SİA Qazaxıstanın Azərbaycandakı səfirliyinə istinadən xəbər verir ki, görüş zamanı tərəflər iki ölkənin KİV sahəsində əməkdaşlığı məsələlərini müzakirə ediblər.

A.Oralov Nur-Sultan şəhərindəki Media mərkəzinin işi, yeni "Turkistan" televiziya kanalının işə salınması və bu sahədə digər layihələr haqqında ətraflı danışıb. Tərəflər türk dövlətlərinin tarixi, mədəniyyəti və müasir həyatı ilə tanışlıq məqsədilə beynəlxalq əməkdaşlığın əhəmiyyətini vurğulayıblar. Görüş Türk Şurasına üzv ölkələrin informasiya və media sahəsindəki dövlət qurumlarının rəhbərlərinin konfransı çərçivəsində baş tutub.

# Əhməd İsmayılov: "Media haqqında" qanun layihəsi üzərində işlər yekunlaşmaq üzrədir



***"Media haqqında" qanun layihəsi üzərində işlər yekunlaşmaq üzrədir. SİA-nın məlumatına görə, bunu jurnalistlərə açıqlamasında Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmaylov deyib.***

Ə.İsmayılov bildirib ki, hazırda media subyektlərinin təklifləri müzakirə olunur. O qeyd edib ki, qanun layihəsi yaxın zamanlarda aidiyyəti orqanlara təqdim ediləcək: "Daha sonra isə layihə ətrafında cəmiyyətdə müzakirələr keçiriləcək". Ə.İsmayılov bildirib ki, Azərbaycanda media reyestrinin yaradılması nəzərdə tutulur. Onun sözlərinə görə, media reyestrinin yaradılması jurnalistlərlə bağlı bir sıra layihələrin həyata keçirilməsinə imkan verəcək. O qeyd edib ki, jurnalistlərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində layihələrin həyata keçirilməsi də nəzərdə tutulur.

# "Azərbaycan BMT ilə əlaqələrin inkişafına böyük önəm verir"

*Milli Məclisin sədri Sahibə Qafarova BMT Baş Assambleyasının 75-ci sessiyasının prezidenti ilə görüşüb*



***Dünən Milli Məclisin sədri Sahibə Qafarova BMT Baş Assambleyasının 75-ci sessiyasının prezidenti Volkan Bozkırın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Parlamentin sədri qonaqları səmimi salamlayaraq, Azərbaycanın BMT ilə əlaqələrin inkişafına böyük önəm verdiyini deyib.***

Qeyd edilib ki, ölkəmiz bu nüfuzlu beynəlxalq təşkilatın orqanları ilə sülh və təhlükəsizlik məsələlərinə dair müzakirələrdə fəal iştirak edir, qurumun xətti ilə keçirilən tədbirlərə öz layiqli töhfəsini verir. Heç də təsadüfi deyildir ki, müstəqil Azərbaycan BMT TŞ-nın qeyri-daimi üzvü olduğu dövrdə Prezident İlham Əliyevin sədrliyi ilə terrorizmlə mübarizə və BMT ilə İslam dünyası arasında tərəfdaşlıq məsələlərinə həsr olunmuş yüksək səviyyəli görüşlər keçirilib. Ölkəmiz beynəlxalq təhlükəsizliyə dair mühüm qərarların qəbul olunmasında yaxından iştirak edib. Azərbaycan sülhməramlıları BMT-nin mandatı ilə bu gün də Əfqanıstanda və Cənubi Sudanda sülhüqoruma əməliyyatlarında fəal iştirak edirlər.

Sahibə Qafarova bildirib ki, Azərbaycan qlobal xarakterli məsələlərin həllində də səylərini əsirgəmir. Belə ki, Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan Prezidentinin təklifi ilə BMT Baş Assambleyasının COVID-19-a qarşı mübarizəyə həsr olunmuş xüsusi sessiyası keçirilib. Sessiyada bu məsələdə beynəlxalq əməkdaşlığın gücləndirilməsinin vacibliyi vurğulanıb. Milli Məclisin sədri qonağın təmsil etdiyi təşkilatla ölkəmiz arasında "2021-2025-ci illər üçün BMT-nin Dayanıqlı İnkişaf üzrə Əməkdaşlıq Çərçivəsi sənədi"nin imzalanmasını yüksək dəyərləndirib.

Söhbət zamanı Sahibə Qafarova artıq tarixə qovuşmuş Ermənistan-Azərbaycan münaqişəsinə dair BMT Təhlükəsizlik Şurasının vaxtilə qəbul etdiyi 4 qətnaməsini xatırlayaraq, 44 günlük Vətən müharibəsi dönəmində bu sənədlərin Azərbaycanın özü tərəfindən icra edildiyini və ölkənin ərazi bütövlüyünün bərpa olunduğunu söyləyib. Ancaq işğaldan azad olunmuş ərazilərimizdə minalanmış sahələrin xəritələrini Ermənistan dövləti hələ də təqdim etmir. Bu isə müharibə cinayətidir və təhlükəsizliklə bağlı çox böyük problemlər yaradır. Biz bu məsələdə beynəlxalq birliyin dəstəyinə ümid edirik. Bu xəritələrin təqdim edilməsi Qarabağda bərpa işlərinin daha sürətlə aparılmasına təkan verəcək.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Volkan Bozkır BMT Baş Assambleyasının 75-ci sessiyasının prezidenti kimi ilk səfərlərindən birini Azərbaycana etməsindən qürur duyduğunu söyləyib. Bildirilib ki, BMT bu təşkilat üçün çox önəmli ölkə olan Azərbaycanla əlaqələri daha da dərinləşdirməkdə maraqlıdır.

Volkan Bozkır deyib ki, Azərbaycan Prezidentinin təşəbbüsü ilə pandemiya dövründə BMT-nin xüsusi sessiyasının keçirilməsi beynəlxalq aləmdə geniş rezonans doğurub. Biz pandemiya ilə əlaqədar Azərbaycanın digər ölkələrə və qurumlara göstərdiyi yardımları yüksək dəyərləndiririk. İndi hamılıqla birlikdə postpandemiya dövrünə - yeni çağırışlara hazır olmalıyıq.

Görüşdə Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər iştirak ediblər.

# Adil Əliyev: Vətən müharibəsinin qəhrəmanlarının və onların ailə üzvlərinin qayğılarının həlli dövlət siyasətimizin əsas prioritetidir



Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib Ordumuz Vətən müharibəsini möhtəşəm Qələbə ilə yekunlaşdırdı. Qürurla deyə bilərik ki, uzun illərdir işğal altında olan torpaqlarımızın düşmən işğalından azad edilməsi tariximizin ən parlaq səhifələrindəndir. AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclis sədrinin müavini Adil Əliyev bildirib.

Adil Əliyev qeyd edib ki, Vətən müharibəsində qazanılmış Qələbədən sonra dövlətimizin qarşısında duran əsas məsələlərdən biri də şəhid ailələri və qazilərin qayğılarının diqqət mərkəzində saxlanmasıdır. Hazırda Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin problemlərinin dərhal həll edilməsi, onların məişət şəraitinin daha da yaxşılaşdırılması üçün lazımi tədbirlər görülür. Şəhid ailələri və qazilərin qayğıları daim Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət mərkəzindədir. "Bu sahədə görülən işlərdən danışarkən Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli Fərmanına əsasən şəhid ailələrinin və qazilərin qayğıları ilə bağlı işlərin daha səmərəli və çevik aparılması məqsədilə yaradılmış "YAŞAT" Fondunu xüsusi qeyd etmək lazımdır. Fondun fəaliyyəti qazilərimizin xarici ölkələrdə müalicələrinin təşkili, eyni zamanda, şəhid ailələrinin və qazilərimizin məişət şəraitinin daha da yaxşılaşdırılması məqsədilə işlərin görülməsini özündə ehtiva edir. Çox mütərəqqi addımlardan biri olan "Yaşat" Fonduna həm ölkə daxilindən, həm də xarici ölkələrdən ianələr edilməsi bu qurumun maddi resurslarının genişlənməsinə istiqamətlənmişdir. Fond da öz fəaliyyətində şəffaflığı rəhbər tutmaqla, cəmiyyətə açıq hesabatları təqdim etməklə bu nəcib təşəbbüsün davam etdirilməsini hədəfləyir. Fondun təşəbbüsü ilə şəhid ailələri və qazilərlə görüşlər keçirilir, onların ehtiyacları müəyyən edilir və mövcud problemlərin həlli istiqamətində müvafiq addımlar atılır", - deyə A.Əliyev vurğulayıb.

Milli Məclis sədrinin müavini vurğulayıb ki, dövlətin bu sahədə apardığı siyasətin davamı olaraq şəhid hərbi qulluqçuların, habelə onların ailə üzvlərinin, qazilərin kreditlərinin bağışlanması təqdirəlayiqdir. O deyib: "Şəhid ailələrinin və qazilərimizin qayğılarının diqqətdə saxlanması ilə yanaşı, dövlət siyasətimizin əsas prioritetlərindən biri də Qarabağın tez bir zamanda bərpa edilməsidir. Dərin təəssüf hissi ilə qeyd etməliyik ki, Ermənistan 30 il ərzində Qarabağı talan etmiş, bir salamat bina belə saxlamamışdır. Qarabağın dirçəlişini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 4 yanvar tarixli Fərmanı ilə Qarabağ Dirçəliş Fondu yaradılıb. Bu Fond 30 il yaxın müddət ərzində erməni qəsbkarları tərəfindən talan edilmiş və bu gün işğaldan azad olunmuş ərazilərimizin yenidən həyata qaytarılmasına, ölkəmizin siyasi-iqtisadi suverenliyinin güclənməsinə xidmət edəcək. Hər bir vətənpərvər vətəndaşımız oraya pul köçürməklə əzəli və əbədi torpaqlarımızın bərpasında iştirakını təmin edəcək".

Adil Əliyevin sözlərinə görə, Qarabağ Dirçəliş Fondu işğaldan azad edilmiş ərazilərimizin tamamilə yenidən qurulmasında, müasir şəhər, qəsəbə və kəndlər tikməklə bölgəyə dinc, təhlükəsiz, rahat həyat gətirilməsində, məcburi köçkünlərimizin daimi yaşayış yerlərinə qayıtmasında mühüm rol oynayacaq. Fondun fəaliyyəti işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması ilə yanaşı, Qarabağın güclü iqtisadiyyata malik regiona çevrilməsi istiqamətində də dəstək göstərəcək, habelə xarici ölkələrdən investisiyaların cəlbinə şərait yaradacaq. "Bundan başqa, müharibədə iştirak etmiş, tərxis olunmuş şəxslərin müraciətlərinə dərhal baxılaraq həlli məqsədilə də xüsusi komissiya yaradılıb. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən bu komissiya qısa müddət ərzində 800-ə yaxın müraciətə baxıb və onların həll olunması üçün tədbirlər görüb. Füzuli rayonu ərazisində isə komissiyanın səyyar qrupu da fəaliyyət göstərir", - deyə o qeyd edib.

Milli Məclis sədrinin müavini bildirib ki, Vətən müharibəsi iştirakçılarının qayğılarının diqqət mərkəzində saxlanması məqsədilə Nazirlər Kabinetinin 2021-ci il 30 yanvar tarixli 24 saylı Qərarına əsasən Vətən müharibəsi iştirakçılarına "Müharibə veteranı" adının verilməsi işinin təşkili üzrə də xüsusi komissiya yaradılaraq fəaliyyətə başlayıb. Bütün bunlar onu deməyə əsas verir ki, şəhid ailələrinin və qazilərin qayğıları bundan sonra da daim diqqət mərkəzində saxlanılacaq, dövlətimizin sosial siyasətinin prioritet istiqaməti olaraq qalmaqda davam edəcəkdir.

# Xankəndidə dövlət bayrağımız yüksəldiləcək: proseslər inkişaf edir!





***Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev cənablarının “QARABAĞ AZƏRBAYCANDIR!” kəlamı nəinki azad edilmiş torpaqlarımızda, bütünlükdə Qarabağımızda öz səs-sədasını əks etdirmək üzrədir.***

Məlum olduğu kimi, Prezident İlham Əliyev Ağcabədi rayonunun Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə (109 km)-Avşar-Salmanbəyli-Aşağı Avşar-Xocavənd avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 13,6 milyon (on üç milyon altı yüz min) manatın ayrılmasını tapşırıb.

Digər tərəfdən, onu da xatırlada bilərik ki, artıq Azərbaycan Dəmir Yolları da Yevlax-Xankəndi dəmir yolunun Ağdam, Xocalı və Xankəndindən keçən yeni qolunun inşasını müzakirə edib və bu istiqamətdə də işlərin başlanılması gözlənilir.

Bir vaxtlar həsrətlə xatırladığımız Qubadlıda, Kəlbəcərdə, Laçında, Zəngilanda, Ağdamda, Fizulidə artıq bu gün Azərbaycan dövlət bayrağı dalğalanırsa, bu zaman müqəddəs üç rəngli bayrağımızın istiqamət aldığı növbəti marşrutun Xankəndi olduğunu da unutmamalıyıq!

Xankəndidə, Xocavənddə, Xocalı və Əsgəranda tikinti-quruculuq işləri həyata keçiriləcək

Ümumiyyətlə, işğaldan azad olunmuş ərazilərimizin yol-infrastruktur və s. layihələrinin qısa zamanda reallaşdırılması istiqamətində başladılan işlər, o cümədən, Şuşaya çəkilən yol, həmçinin digər tikinti-inşaat layihələri fakt olaraq belə qənaətə gəlməyə zəmin yaradır ki, azad Qarabağ yaxın illər ərzində özünün əsrarəngiz inkişafı ilə dünyaya səs salacaq. Bu, həm də o deməkdir ki, hazırda Xankəndidə, Xocavəndin bir hissəsində, Xocalı və Əsgəranda və s. Rusiya sülhməramlılarının nəzarət etdiyi bölgələrdə də çox yaxın vaxtlarda tikinti-quruculuq işləri həyata keçiriləcək. Daha dəqiq desək, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev cənablarının “QARABAĞ AZƏRBAYCANDIR!” kəlamı nəinki azad edilmiş torpaqlarımızda, bütünlükdə Qarabağımızda öz səs-sədasını əks etdirmək üzrədir.

**Tural Gəncəliyevin tvitter hesabında yazdığı statusu separatçıları yerlərindən oynadıb**

Yeri gəlmişkən, verilən bu qərarlar, həyata keçirilən layihələr separatçı və quldur rejim qalıqlarını da ciddi şəkildə təlaşlandırmağa başladıb. Misal üçün, daha bir faktı göstərə bilərik. Bugünlərdə Dağlıq Qarabağın Azərbaycanlı İcması İctimai Birliyinin sədri, millət vəkili Tural Gəncəliyevin tvitter hesabında yazdığı statusu separatçıları yerlərindən oynadıb. Belə ki, o statusunda tezliklə ofisinin Xankəndidən fəaliyyət göstərəcəyini bildirmişdi. O qeyd edib ki, hazırda şəhərdə yeni ofis binası üçün mümkün yerlər nəzərdən keçirilir. “Etnik mənşəyindən asılı olmayaraq, hər kəsə yaxşı xidmət etmək üçün əlimdən gələni edəcəyəm!”, deyə o statusunda vurğulayıb.

Bütün bunlar isə bir faktı sübut edir ki, Prezident İlham Əliyev özünün qətiyyətli və çevik qərarları, əzmkarlığı, eləcə də verdiyi vədlərini tam şəkildə yerinə yetirən dövlət başçısı olaraq çox yaxın zamanlarda Qarabağımızın digər ərazilərimizdə də Azərbaycanın dövlət bayrağını yüksəldəcək. Qarabağda aparılan işlər və inkişaf edən proseslər məhz bu istiqamətdə doğru sürətlə irəliləyir. Buna isə kimsənin şübhəsi olmamalıdır.

*Rövşən RƏSULOV*

# Volkan Bozkır: Azərbaycan BMT üçün vacib ölkələrdən biridir



Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının Xüsusi Sessiyası çərçivəsində COVID-19-la mübarizə məqsədilə konfransın keçirilməsi təşəbbüsü ilə çıxış edərək liderlik nümayiş etdirdi. Azərbaycan Lideri bu təşəbbüsü ilə dünyaya çox önəmli mesajlar verdi və təşəbbüsü uğurla həyata keçirildi.

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında BMT Baş Assambleyasının 75-ci sessiyasının prezidenti Volkan Bozkır söyləyib.

Volkan Bozkır bildirib ki, Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi vəzifəsini uğurla yerinə yetirir. Azərbaycan regionda və dünyada sözü və nüfuzu olan ölkədir. Düşünürəm ki, ölkəniz bundan sonra da beynəlxalq əməkdaşlığa töhfələrini verməkdə davam edəcək.

“Səfərim zamanı keçirilən görüşlərdə biz dünyanı narahat edən problemlərlə bağlı müzakirələr apardıq. Bunlar çətin vəziyyətdə olan ölkələrin durumu və COVID-19-a qarşı mübarizə yolları, vaksinlərin ölkələr arasında bərabər bölünməsi, həmçinin su və enerji ilə bağlı məsələlərdir”, - deyə o bildirib.

# Kraliçanın həyat yoldaşı vəfat etdi



İngiltərə kraliçası II Elizabetin həyat yoldaşı, Edinburq hersoqu II Filip dünyasını dəyişib. SİA xarici KİV-ə istinadən xəbər verir ki, 99 yaşlı şahzadə xəstəlik səbəbilə vəfat edib. Xatırladaq ki, II Filip martın üçündə Müqəddəs Varfolomey xəstəxanasında ürək xəstəliyi ilə əlaqədar əməliyyat olunmuşdu.

# Rüstəm Muradov Ermənistan rəhbərliyini təxribatda suçladı



Rusiya sülhməramlılarının komandiri, general-leytenant Rüstəm Muradov Ermənistan rəhbərliyini əsirlərlə bağlı təxribatda ittiham edib. Erməni “Telegram” kanallarında qeyd edilir ki, Muradov jurnalistin Ermənistan rəhbərliyinin dünən əsirlərin qayıtmasını niyə elan etməsi ilə bağlı sualı cavablandırıb. “Bu, təxribatdır. Özlərindən (Ermənistan rəhbərliyindən) soruşun. Onlar əhalini çaşdırırlar”. Muradov bildirilib ki, əsirlərin qayrtarılması planlaşdırılmamışdı, bu, Bakıya sadə işgüzar səfər olub.

# İslam dünyası Azərbaycanı qələbə münasibəti ilə təbrik etdi

*Prezident İlham Əliyev: "Təcavüzkar bizim torpaqlarımızdan qovuldu və indi bərpa vaxtıdır"*

***Azərbaycan Respublikasının İslam Əməkdaşlıq Təşkilatı ilə münasibətlərinin inkişafı ölkəmizin xarici siyasət kursunda prioritet istiqamətlərdəndir və strateji əhəmiyyət daşıyır. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra həmin dövrdə, erməni təcavüzünə məruz qalmış, informasiya-təbliğat imkanları zəif və məhdud olan Azərbaycanın haqlı mövqeyinin İslam dövlətləri tərəfindən dəstəklənməsi vacib məsələlərdən idi. İslam Əməkdaşlıq Təşkilatı torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğalı ilə nəticələnmiş münaqişənin həlli ilə bağlı bir neçə qətnamə qəbul edib.***

İƏT Xarici İşlər Nazirlərinin Şurası tərəfindən "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü", "Azərbaycana iqtisadi yardımın göstərilməsi" və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində işğal olunmuş Azərbaycan torpaqlarında İslam dininə aid tarixi və mədəni irsin və ibadət ocaqlarının dağıdılması və təhqir olunması" adlı qətnamələr Azərbaycanın haqq işini hər zaman dəstəklədiyini göstərir.

### İƏT AZƏRBAYCANLA HƏMRƏYLİK NÜMAYİŞ ETDİRİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd əl-Osaymini qəbul edərkən İslam Əməkdaşlıq Təşkilatı və Azərbaycan arasında əməkdaşlığın inkişafına verdiyi müstəsna töhfəyə görə onu Azərbaycanın dövlət ordeni - "Dostluq" ordeni ilə mükafatlandırıb. İƏT ilə Azərbaycan arasında əməkdaşlıq davamlı xarakter alıb və hər zaman, çətin anlarda Azərbaycanın yanında olub. Dövlət başçısı Azərbaycan və Ermənistan arasında münaqişənin həll olunması ilə bağlı Azərbaycana davamlı dəstəyə görə İslam Əməkdaşlıq Təşkilatının Baş katibinə minnətdarlığını ifadə edib. Həmişə olduğu kimi, son illərdə baş verən hadisələrdə də İƏT-in Azərbaycanla həmrəylik nümayiş etdirməsi də diqqətdən kənarda qalmadı. 2019-cu ilin 19 sentyabr tarixində Ermənistanın Baş naziri Nikol Paşinyanın işğal olunmuş ərazilərimizə qeyri-qanuni səfəri və orada səsləndirdiyi təxribatçı bəyanatları ilə bağlı İƏT-in Baş katibi adından təşkilatın rəsmi internet səhifəsində "OIC Secretary General Expresses Deep Concern over the Recent Statement of Armenian Prime Minister on Nagorno-Karabakh" başlıqlı bəyanat dərc edildi. 2020-ci ilin 31 mart tarixində ölkəmizin işğal olunmuş ərazilərində keçirilən qondarma "seçkilər"lə əlaqədar İslam Əməkdaşlığı Təşkilatı "İƏT işğal olunmuş Dağlıq Qarabağda seçkilərin keçirilməsini rədd edir" başlıqlı bəyanatla çıxış etdi. İyulun 12-də Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının Tovuz rayonu istiqamətində hücumunu, atəşkəsi pozmasını, nəticədə azərbaycanlı əsgərlərin həlak olmasını və yaralanmasını kəskin şəkildə pisləyən bəyanat da yaydı.

İslam Əməkdaşlıq Təşkilatının Baş Katibliyi Ermənistan silahlı qüvvələrinin 2020-ci il oktyabrın 10-da Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında əldə olunmuş humanitar atəşkəs razılaşmasını pozması və bunun nəticəsində bir çox mülki şəxsin həlak olması və yaralanması ilə bağlı narahatlığını ifadə edərək bununla bağlı yaydığı açıqlama da ölkəmizlə həmrəyliyinə əsaslanır. Açıqlamada İƏT-in qətnamə və qərarlarını, həmçinin BMT Təhlükəsizlik Şurasının aidiyyəti qətnamələrini xatırladaraq, iki ölkə arasında münaqişənin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı əsasında siyasi yolla həllinə çağırırmışdı.



### "BİZİM ŞƏHƏRLƏRİMİZ BİRİNCİ QARABAĞ MÜHARİBƏSİ ƏRZİNDƏ DEYİL, SONRADAN İŞĞAL DÖVRÜNDƏ DAĞIDILIB"

2020-ci ilin 27 sentyabr tarixindən etibarən Ermənistan ordusunun təxribatlarına qarşı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlayan genişmiqyaslı Vətən müharibəsi qələbəmizlə başa çatdı. Cənab Prezident "44 günlük müharibə Azərbaycan torpaqlarının 30 il davam edən və bir milyondan çox azərbaycanlının iztirabına, şəhər və kəndlərimizin tamamilə dağıdılmasına gətirib çıxaran işğalına son qoydu" deyərək bildirib ki, indi əcnəbi jurnalistlər və diplomatlar işğaldan azad olunmuş ərazilərə səfər edəndə onlar görürlər ki, ermənilər hər şeyi dağıdıblar: "Bütün şəhərlər, bütün kəndlər, tarixi və dini məkanlar, məscidlər, qəbiristanlıqlar dağıdılıb. Bu, islamofobiyanın, Azərbaycanofobiyanın, vandalizmin təzahürüdür. Çünki dəfələrlə dediyim kimi, bizim şəhərlərimiz Birinci Qarabağ müharibəsi ərzində deyil, sonradan işğal dövründə dağıdılıb. Bu, bütün Azərbaycan və İslam irsini Azərbaycanın bu tarixi torpaqlarından silmək və həmin torpaqların mənşəyini dəyişdirmək üçün qəsdən yürüdülən siyasət idi. Mən bilirəm ki, səfirlər, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə kontakt qrupun üzvləri bu yaxınlarda işğaldan azad edilmiş ərazilərə səfər ediblər və bunu öz gözləri ilə görüblər. Onlar açıq bəyanatlar veriblər və biz buna görə çox minnətdarıq".

İşğaldan azad olunmuş qədim tarixi torpaqlarımızda Ermənistanın hərbi birləşmələri yaşayış yerlərini, insan məskənlərini, eləcə də milli mədəniyyət abidələrimizi qəddarcasına dağıdıblar. Erməni terrorçuları tərəfindən zəbt olunmuş qədim Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli - 6 memarlıq və 7 arxeoloji, 292 ölkə, 330 yerli əhəmiyyətli memarlıq, arxeoloji, bağ, park, monumental və xatirə abidələri, sənət nümunələri qalmışdı. Həmçinin bu ərazilərdə 40 mindən artıq əşyanın toplandığı 22 muzey, yüzlərlə mədəni-maarif müəssisələri də düşmən tapdağı idi.

### "BİZİM ATDIĞIMIZ ADDIMLAR HAQQ İŞİ İDİ, BEYNƏLXALQ HÜQUQA, BMT-NİN NİZAMNAMƏSİNƏ, ÖZÜNÜMÜDAFİƏ HÜQUQUMUZA VƏ ƏDALƏTƏ ƏSASLANIRDI"

Bildiyimiz kimi, İslam Əməkdaşlıq Təşkilatının Baş Katibliyi İslam irsinin ayrılmaz hissəsi olan Dağlıq Qarabağda və ətraf rayonlardakı tarixi abidələrin vəziyyəti ilə əlaqədar dərin narahatlığını bildirmişdi. Bu haqda İƏT-in yaydığı bəyanatda, maddi və mənəvi dəyərlərin, xüsusən Qubadlı rayonunun azad edilmiş Məmər kəndindəki məscidin qəsdən dağıdılması və talan edilməsi, tarixin mənimsənilməsi və saxtalaşdırılması təcavüz siyasətinin bariz sübutu olduğu göstərilirdi. Bəyanatda o da qeyd olunurdu ki, işğal olunmuş ərazilərdə əsrlərboyu qalmış dini-mədəni irslərdən sui-istifadə beynəlxalq qanunların və konvensiyaların, o cümlədən "Silahlı Münaqişələr zamanı Mədəni Mülkiyyətin Qorunmasına dair 1954-cü il Haaqa Konvensiyası"nın və 1954, 1999-cu il protokollarının açıq şəkildə pozulmasıdır. Xarici işlər nazirləri Şurasının 46-cı iclasında İƏT "İslamın müqəddəs yerlərinin qorunması haqqında" 3/46-S saylı Qərar qəbul edib. Qərarda erməni təcavüzkarları tərəfindən Azərbaycan Respublikasında İslama aid tarixi və mədəni irsin tamamilə məhv etmək məqsədi, barbar hərəkətləri pislənilmişdi.

Ermənilərin bu əməli "Arxeoloji irsin qorunması haqqında" 1992-ci il tarixli Avropa Konvensiyası və "Silahlı münaqişələr zamanı mədəniyyət abidələrinin qorunması haqqında" Avropa Konvensiyasına tam ziddir. Onların etdikləri "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyası, UNESCO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" 1972-ci il Konvensiyası ilə də ziddiyyət təşkil edir.

Artıq Azərbaycan öz torpaqlarını işğaldan azad edib, tarixi ədalət bərpa olunub. Cənab Prezidentin vurğuladığı kimi, bizim atdığımız addımlar haqq işi idi, beynəlxalq hüquqa, BMT-nin Nizamnaməsinə, özünümüdafiə hüququmuza və ədalətə əsaslanırdı: "Biz ədaləti bərpa etdik. Təcavüzkar bizim torpaqlarımızdan qovuldu və indi bərpa vaxtıdır. Lakin bu, vaxt aparacaq. Çünki əlbəttə ki, ən böyük problem minalardır. Müharibə bitəndən sonra bizdə artıq onlarla itki olub, o cümlədən minalardan ölənlər olub. Ermənistan bizə minaların xəritəsini verməyib. Bu, daha bir müharibə cinayətidir. Çünki bunu etmək onların borcudur. Lakin müharibənin artıq aylardır bitməsinə baxmayaraq, onlar azərbaycanlılara qarşı bu siyasəti davam etdirirlər. Lakin biz lazım olan hər şeyi edəcəyik".

Təbii ki, beynəlxalq hüquq Azərbaycanın tərəfində idi, İslam Əməkdaşlıq Təşkilatı ölkəmizin yanında idi. Bu gün dövlət başçısının müdrikliyi və təmkinliyi, iradəsi nəticəsində Azərbaycan 30 ilə yaxın işğalda qalan ərazilərin erməni təcavüzkarlarından azad edib. Azərbaycan abadlıq-quruculuq işlərinə başlayıb.

***Nəzakət ƏLƏDDİNQIZI***

# İrəvan-Bakı reysi: Azərbaycanın mövqeyi daha sərt, daha qətiyyətlidir!

*Və ya erməni diversant-terrorçularının təyyarələri niyə boş uçur?*




Məlum olduğu kimi, Nikol Paşinyanın Putinlə görüşündən və Putinin Prezident İlham Əliyevlə telefon danışığından sonra bu gün İrəvandan Bakıya təyyarə uçub. Məqsəd, müharibədən sonra saxlanılan erməni diversantlarının bir hissəsinin Azərbaycan tərəfinin şərtləri əsasında geri qaytarılması olub. Qeyd edək ki, şərtlər açıqlanmasa da, bir sıra xeyrimizə olan ehtimallar mövcuddur. Lakin dünən gecədən erməni KİV-lər də yazırlar ki, təyyarə İrəvana boş qayıdıb. Artıq belə bir ehtimallar da yaranmaqdadır - hər halda yeni proses başlanıb və Azərbaycanın Qarabağl bağlı davam etdirdiyi təzyiq siyasəti öz sözünü deməkdədir.

Azərbaycan XİN isə təyyarənin nəyə görə İrəvana "əsirlərsiz" qayıtmasına aydınlıq gətirib. Daha dəqiq desək, erməni diversantlarının bir qismi danışıqlar nəticəsində geri qaytarılmalıydı, AMMA..!

Azərbaycanda ermənilərin müharibə əsirləri yoxdur

Amma buna qədər, Ermənistanın hakimiyyət dairələri bütün dünyaya car çəkərək yalan yaydı ki, guya Azərbaycan onlar tərəfindən göstərilən "təzyiqlər" vasitəsi ilə "əsirləri" geri qaytarır və bu, Nikol Paşinyanın seçkiöncəsi uğurudur.

Lakin həqiqət belədirmi? Yaxud, Azərbaycan erməni tərəfinin iddialarına qarşı hansı addımını atdı? Bəli, - məhz İrəvandan Bakıya gələn təyyarəni bom-boş şəkildə İrəvana geriyə qaytardı. Belə ki, Azərbaycanda ermənilərin müharibə əsirləri yoxdur və ötən il noyabrın 10-da əldə edilən atəşkəs razılaşmasından sonra diversiya məqsədi ilə torpaqlarımıza soxulan, mülklərimizi, hərbçilərimizi hədəfə alan və nəticədə ələ keçirilən diversant-terrorçular var.

Daha bir məsələ - əgər Ermənistan tərəfi nə zaman "əsirləri" deyil, diversant-terrorçularını geri qaytarılmasını xahiş edərsə, eləcə də, bəyanatın pozmalarına görə tərəfimizdən irəli sürülən digər şərtlərimizi qəbul edərsə, məhz bu zaman həmin xahişə belə (!) baxıla bilər. Lakin buna qədər İrəvan-Bakı təyyarəsi yalnız boş şəkildə uçmağa davam edəcək. Hərbi əsirləri isə Azərbaycan Ermənistana çoxdan qaytarıb.

Rusiya və erməni vassalları Zaqafqaziyadakı yeni reallıqlarla barışmağa məhkumdurlar

Daha bir xatırlatmanın edilməsinə ehtiyac var. Belə ki, Azərbaycan Vətən müharibəsindən əvvəl və sonra qardaş Türkiyə ilə müttəfiqliyini daha da gücləndirdi və artıq elə bir ölkə deyilik ki, bizimlə siyasi manipulyasiyalar edilsin, yaxud, Moskvanın ermənilərin maraqlarına oynayan şərtləri üstünlük təşkil etsin. Əslində isə ermənilərin diversant-terrorçuları üçün göndərdikləri təyyarələrinin Bakıdan İrəvana boş qayıtması faktına görə, Rusiya Zaqafqaziyadakı yeni reallıqlarla barışmağa məhkumdur. Misal üçün, bir müddət əvvəl Rusiya müdafiə nazirinin müavini Bulqakov Qarabağa Azərbaycanı xəbərdar etmədən, Ermənistan üzərindən səfər etdi. Buyurun, bu da həmin səfərə verilən cavablardan biri!

Əslində isə bu, Prezident İlham Əliyevin həm Rusiyanın elə də etibarlı görünməyən addımlarına, xüsusilə də onların erməni vassallarına verdiyi qətiyyətli cavabı idi. Bundan əvvəl isə, "İskəndər M" raketlərinin ifşa olunması idi. Ruslar deyirlər ki, ermənilərə ixracı qadağan edilən "İskəndərləri" ötürməyib. Ötürməyibsə, demək ki, içində Rüstəm Muradovdan başqa kimsə olmayan boş təyyarələr İrəvan-Bakı reysi ilə boş uçub, boş da qayıtmalı olacaq. Hər halda, Azərbaycanın üçtərəfli razılaşmada tələb edilən şərtlərinin dərhal yerinə yetirilməsi vaxtı, zamanı yetişib və bu dəfə rəsmi Bakının mövqeyi daha sərt, daha qətiyyətlidir!

**Rövşən RƏSULOV**

ANALITIK-AKTUAL

## YAP GB-nın sədri: "Azərbaycan gəncliyi beynəlxalq arenada ölkəmizi uğurla təmsil edir"

"Azərbaycan gəncliyi beynəlxalq arenada ölkəmizi uğurla təmsil edir". SİA-nın verdiyi məlumata görə, bu fikri YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov deyib.



Bəxtiyar İslamov bildirib ki, gənclərimiz beynəlxalq arenada təcrübə, bilik və bacarıqlarını yüksək səviyyədə ortaya qoyurlar.

"Azərbaycan gəncliyi yeni, müasir çağrışlara cavab verən gənclik olmaqla bərabər öz milli adət-ənələrinə, tarixi köklərinə sadiqdir. Ona görə də, hesab edirəm ki, Azərbaycan gəncləri beynəlxalq arenada çox yüksək təmsilçiliklə məşğuldur. Əlbəttə ki, biz bununla kifayətlənməli deyilik. Növbəti dönəmlərdə beynəlxalq müstəvidə fəaliyyətimizi ən uğurlu şəkildə Azərbaycanın milli maraqları, dövlətçilik maraqları naminə daha da genişləndirməliyik",-deyə YAP Gənclər Birliyinin sədri qeyd edib.

## Fransa portalı Qarabağda erməni vandalizmindən yazır

Bəzi ölkələr işğal olunmuş ərazilərin təbii ehtiyatlarından son dərəcə bəhrələnib, digərləri isə buna laqeyd qalaraq onu yalnız hərbi işğal kimi qəbul ediblər. Təəssüf ki, Qarabağın Ermənistan tərəfindən 27 il işğalı dövründə sadalanan ssenarilər baş verib: işğal altındakı ərazilərdəki şəhərlər, oranın təbiəti, mədəni və tarixi obyektləri Ermənistan tərəfindən dağıdılıb və viran edilib. Bölgənin inkişafı üçün konkret heç bir iş görülməyib və bu işğal sayəsində Ermənistan iqtisadi cəhətdən inkişaf da edə bilməyib.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Fransanın "Mondeafrique" portalında dərc olunan "Ermənistanın işğalı altında Qarabağ mədəniyyətinin məhv edilməsi" sərlövhəli məqalədə yer alıb.




Yazıda 1992-ci ilə qədər azərbaycanlıların yaşadığı bu bölgənin Ermənistan tərəfindən işğal edilməsindən ötən 27 il ərzində bölgədəki tarixi və mədəniyyət abidələrinin məhv olunmasından söz açılıb.

Bildirilib ki, işğal dövründə Ağdam kabus şəhərə çevrilib, buradakı bütün tarixi və mədəni irs nümunələri, eləcə də şəxsi evlər və binaların yerlə-yeksan edilib. Vurğulanıb ki, işğal dövründə Ağdamda 571 mədəniyyət abidəsi, o cümlədən 286 kitabxana, 237 ev və klub, 19 muzey, 24 musiqi məktəbi, 1 kinoteatr, 2 teatr və 2 qalereya binası darmadağın edilib.

Diqqətə çatdırılıb ki, rayonda olan 67 məsciddən yalnız biri pis vəziyyətdə olsa da qalıb. Ermənilər bu məsciddən nəzarət postu kimi istifadə etdikləri üçün onu tam dağıtmayıblar. Digər məscidlər isə tamamilə məhv edilib. Rayondakı körpülər, Zərdüşt ibadətgahları, Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kəndlərindəki məscidlər, Horadiz kəndində 2 məscid, Cəbrayıl rayonunun Süleymanlı və Papı kəndlərindəki məscidlər, Qubadlı rayonundakı Mamer və Yusifbəyli kəndlərindəki, həmçinin Zəngilandakı məscidlər yerlə-yeksan edilib. Ağdam şəhərindəki Pənahəli xan (XIX əsr) və Mehdiqulu xan türbələrinə, abidələrə ciddi ziyan dəyib. XIX əsr tarixi abidəsi olan İbrahimxəlil xanın türbəsi isə yer üzündən tamamilə silinib.

Vurğulanıb ki, işğal dövründə erməni silahlı qüvvələrinin İslam mədəni irsini hədəfə aldığı aydın görünür. Həmçinin qeyd olunub ki, işğal altındakı ərazilərdə qanunsuz arxeoloji qazıntılar aparılıb. Qafqaz Albaniyasına məxsus bir çox abidələrin, eləcə də Xudavəng və Gəncəsər monastırlarının da erməni silahlı qüvvələri tərəfindən vandalizmə məruz qaldığı bildirilib.

Müəllif yazıb ki, regionun mədəni irsinə qarşı Ermənistan tərəfindən törədilən vandalizm aktlarının beynəlxalq sənədlərin, xüsusilə də "Silahlı münaqişələr zamanı mədəni sərvətlərin qorunmasına dair 1954-cü il Haaqa Konvensiyası", "Arxeoloji irsin qorunmasına dair Avropa Konvensiyası" və "Dünya mədəni və təbii irsinin qorunmasına dair Konvensiya"ların kobud şəkildə pozulmasıdır. Azərbaycanın meşə ehtiyatlarının 54 min hektarı erməni və ermənipərəst qüvvələr tərəfindən məhv edilib. Müharibə dövründə də ermənilərin Azərbaycan mədəni irsinə maksimum zərər verməyə çalışıb, evləri yandırıblar.

Eyni zamanda, diqqətə çatdırılıb ki, Azərbaycanın azad edilmiş ərazilərdə bərpa işlərinə başlanıb. Bildirilib ki, aeroportların, yolların tikintisi, ümumiyyətlə, azad olunmuş ərazilərdə infrastrukturun yaradılması bir milyona yaxın azərbaycanlı məcburi köçkünün doğma yurduna qayıtmasına imkan yaradacaq.

# Əli Kərimli və trolları tüpürdüklərini belə yaladılar

## Və ya erməni maraqlarına işləməyin daha bir aşkar sübutu!




AXCP sədri Əli Kərimlinin bilavasitə nəzarəti altında olan partiyanın sosial şəbəkələrdəki trollar qrupu, eləcə də informasiya resursları əllərinə düşmən hər bir imkandan maksimum yararlanmaqla Azərbaycan dövlətçiliyinə və dövlət maraqlarına qarşı ermənidən artıq erməniçilik etməklə, əslində, düşmənlə əlbir olduqlarını sübuta yetiriblər. Buna sübut olaraq AXCP-nin rəsmi informasiya resursu olan "Azadlıq" qəzetinin facebook hesabında növbəti düşmən mövqeyi sərgilənib, aşkar təxribat əməli törədilib.

SİA xəbər verir ki, qəzetin baş redaktoru (əslində, gerçək baş redaktor Əli Kərimlidir-R.R.) Qənimət Zahid Ermənistanın baş nazirinin müavini Tiqran Avinyanın mətbuat katibi Njde Ovsepyana istinad edib, daha dəqiqi isə erməni tərəfinin dezinformasiyanı real informasiya kimi ictimai rəyə sırımağa çalışıb və yalan məlumat yayaraq qeyd edib ki, guya Azərbaycan ələ keçirdiyi erməni terrorçuları azad edib. Hətta xəstə təxəyyülünə əsaslanaraq Putinin zəngini də öz ağ yalanına əlavə edib.

**Onlar sözügedən davranışları ilə bir daha düşmənlərimizin ruporları olduqlarını isbatlamış olublar**

Lakin sonradan məlum oldu ki, əsl reallıq tamamilə fərqlidir və Azərbaycan Prezidentinin bilavasitə qətiyyəti, dönməz iradəsi qarşılığında İrəvandan Bakıya uçan təyyarə elə boş olaraq da geriyə qaytarılıb. Sputnik Armeniya və digər erməni informasiya mərkəzləri də yazıblar ki, təyyarədə ancaq Rusiya sülhməramlılarının komandanı Rüstəm Muradov olub.

Nəticədə fakt olaraq aydınlaşıb ki, Azərbaycan dövləti heç bir terrorçunu azad etməyib, geri qaytarmayıb, üstəlik, dövlətin maraqları kontekstində şərt və tələbləri irəli sürməklə bu addımının əsl səbəblərini də açıqaydın izah edib. Təkcə Azərbaycan XİN-nin bəyanatını oxumaq kifayət edər.

Bununla yanaşı, hətta Sputnik Armeniya qeyd edib ki, hava limanına toplaşmış terrorçuların ailə üzvləri Ermənistanın müdafiə nazirliyinin qarşısında aqressivliyə köklənməklə uzun müddətli aksiya keçirməyə başlayıblar. Beləliklə, Əli Kərimlinin və AXCP-nin növbəti dəfə düşmənçilik mövqeyi ortaya çıxıb. Onlar sözügedən davranışları ilə bir daha düşmənlərimizin ruporları olduqlarını isbatlamış olublar. Bütün bunlardan sonra, yəni düşmənə işləmək maraqları bir daha sübut edilən sonra Əli Kərimlinin göstərişi ilə Qənimət Zahid yaydıqları dezinformasiyanı siliblər və bununla tüpürdüklərini yalayan üsnür olduqlarını təsdiq ediblər.

***Rövşən RƏSULOV***

*P.S. Görəsən, Əli Kərimlinin və trollarının erməni aşnaları onların belə bir fəaliyyətlərinə görə qara bank hesablarına nə qədər pul yatıracaqlar?*

---

## Koçaryan Paşinyana qarşı yeni bir iddia qaldırıb



Robert Koçaryan İrəvanın ümumi yurisdiksiyası məhkəməsində Nikol Paşinyana qarşı yeni bir iddia qaldırıb. SİA xəbər verir ki, bu barədə Data-Lex məhkəmə məlumat saytı məlumat yayıb. Məlumata görə, ikinci prezident iddiaçının ədalətli mühakimə etmə hüququnun pozulduğunun təsdiqini tələb edir. Bu hüququn pozulması nəticəsində dəymiş mənəvi ziyanın ödənilməsini və böhtana görə maddi təzminat istəyir.

Xatırladaq ki, 26 martda Konstitusiya Məhkəməsi Robert Koçaryana qarşı ittiham olunan Ermənistan Respublikası Cinayət Məcəlləsinin 300.1-ci maddəsini (konstitusiya quruluşunu devirmək) Konstitusiyaya zidd və etibarsız elan edib.

## Xəbərdarlıq: "Distant təhsilə keçid təhsilin keyfiyyətini aşağı salır"



"Azərbaycanda tədrisin təşkili distant qaydada deyil. Bizdə distant təhsil ümumiyyətlə yoxdur. Bu onlayn təhsildir. Azərbaycanda onlayn təhsilin hüquqi bazası yoxdur". Bunu SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Onun sözlərinə görə, 2020-ci il mart ayından təhsil dayandırıldıqdan sonra məcburiyyətdən onlayn təhsilə keçid etdik: "Bir il ərzində hansı onlayn resurs yaradılıb ki, bizim şagirdlər ordan təhsil ala bilsinlər?! Keçən ilin martı ilə bu ilin aprelinin çox fərqi var. Çünki, 2020-ci ildə iş yerləri bağlanmışdı və uşaqlar valideynlərinin telefonu ilə dərsə qoşulurdular. Artıq, iş yerləri açılıb və valideynlər evdə yoxdur. Bu gün cəmiyyətdə elə bil təsəvvür yaranıb ki, sanki yoluxma yalnız universitetlərdədir. Məktəb virus mənbəyi deyil. İnsanlar ictimai nəqliyyatda bir-birinə daha yaxındırlar. Məktəblərin distant təhsilə keçməsi təhsil keyfiyyətini aşağı salır".

K.Əsədov həmçinin bildirib ki, indiyə qədər 21 min şagirdin valideyni uşaqlarının dərsə gəlməməsi üçün iltizam yazıb: "Bu şagirdlərin hamısı repititor yanındadır. Digər problem buraxılış və qəbul imtahanlarında olacaq. Məktəbə getməyən uşaqlar niyə məktəbdən buraxılış imtahanı verməlidir? Əgər, tədris prosesi onlayn qaydada keçirilibsə, onda imtahanlar da onlayn olsun. Evdə müxtəlif stol-stulda oturmaq şagirdlərin onurğasında problem yaradır. Monitor qarşısında saatlarla dayanmaq gözləri zəiflədir. Araşdırmalara görə, bir çox yerlərdə riyaziyyat fənni üzrə cavab verən şagirdlərin nəticələri kifayət qədər aşağıdır. Bu distant təhsilin texniki fənlər üçün uyğun olmadığını göstərir. Gürcüstanda adam başına düşən yoluxma sayı bizdən dəfələrlə çox olsa da, həyat öz qaydasında davam edir. Doğrudur, insanların sağlamlığı hər şeydən önəmlidir. Lakin, bu vəziyyət təhsilə mane olmamalıdır".

***Ayşən Vəli***

## Azad olunmuş ərazilərdə modul tipli yataqxanalar quraşdırılır



İşğaldan azad edilmiş ərazilərdə dislokasiya olunan bölmələrin hərtərəfli təminatı, sosial-məişət şəraiti və qoşun xidmətinin təşkili ilə bağlı təxirəsalınmaz tədbirlər çərçivəsində modul tipli yataqxanaların quraşdırılması prosesi həyata keçirilir.

Şəxsi heyətin səhra şəraitində kompakt yerləşdirilməsi üçün nəzərdə tutulan, müasir tələblərə cavab verən avadanlıqlarla təchiz edilən bu modul tipli yataqxanalarda bütün infrastruktur yaradılıb. Elektrik, su və qaz xətləri çəkilən yataqxanalar tibb məntəqəsi, yeməkxana, mətbəx, silah otağı və hamam-sanitar qovşağı ilə təmin olunub.

Bu istiqamətdə müvafiq tədbirlər planlı şəkildə davam etdirilir.

# Nikolun erməni fərarilərinə olan ümidi...

***Siz heç evdə ilan saxlayıb böyüdən və daha sonra elə həmən ilan tərəfindən sancılaraq öldürülənlər barədə eşitmisinizmi? Təbii ki, eşitməmiş olmazsınız. Əslində, mən bunu təkcə ilan böyüdüb sonra onun qurbanına çevrilənlərə aid etmək istəmirəm. Çünki belə qurbanlar evdə vəhşi şir və hətta it saxlayanlarla da yaşana bilər.***

Nə demək istəyirəm? Bəli, ötən gün erməni baş nazir Nikol Paşinyan, bəzi istisnalarla, Ermənistandakı əsgər həbsdəkiləri əfv etmək qərarına gəlib. Təbii ki, dəyərləndirilməsi qərardır. Amma bəzi ermənilər Nikolun bu qərarına da qoymağa "qulp" axtarırlar. Deyəsən, tapıblar da.

Beləliklə, Paşinyan hökuməti son 44 günlük müharibədə xidmət etdiyi hissəni qoyub dabanına tüpürüb qaçan, yəni fərarilik edən erməni əsgərlərinə amnistiya vermək qərarına gəlib. Layihə artıq 27 yaşı tamam olmuş və 26 sentyabr 2020-ci il tarixinədək hərbi xidmətdən və ya hərbi təlimlərdən yayınan erməni gənclərinə aiddir. Guya onlara qarşı cinayət işləri dayandırılacaq və barələrində verilmiş axtarış tədbirləri ləğv ediləcək. Bundan əlavə, hökumətin təklifinə görə, hərbi xidmətdən yayınmaq üçün bir müddət Ermənistanı tərk edən bütün ermənilər tezliklə ölkəyə sağ-salamat qayıda bilərlər. Heç qorxub eləməsinlər. Ölkədə onlara toxunan-filan olmayacaq.

Ermənilər belə gözəl bir layihənin ölkə parlamenti tərəfindən qəbul ediləcəyinə və hətta prezidentin təsdiq edəcəyinə də şübhə etmirlər. Beləliklə, əvvəllər hərbi xidmətə getməkdən imtina edib əvəzində dövlətə ödəniş edənlər də daha xərac verməkdən qurtulacaqlar. Əlbəttə, siz bütün bunları ermənilərin silahlı qüvvələrində aparılacaq islahatlar kimi yozmamalısınız.

Ermənilərə görə, hələ də olanları unudub, özünə olan böyük xalq sevgisindən danışmağı çox sevən Paşinyan, əslində bütün bu əfvlə, filanla özünü sığortalamaq istəyir.

Əslində, dünən mən də son yazıda bunu ehtimal edirdim. Yəni Nikolun əfv elədiyi erməni fərarilərinin səsi uğrunda döyüşə girdiyini istisna etmirdim.

İndi artıq Nikolun yerinə keçib, baş nazir olmaq istəyən ermənilər, onun bu təşəbbüsünü çox pisləyirlər. Onlar erməni fərarilərini cəmiyyətin ən biabırçı, xain, dövlət əleyhinə olan təbəqəsi kimi təqdim edirlər. Onların şəxsi qurtuluşlarını vətənin qurtuluşundan üstün tutanlar olduğunu bildirirlər.

Amma bununla belə, onlar bir şeyə ümid bağlayırlar. Bilirsiniz nəyə, əfv olunan məhbusların əksəriyyətinin Paşinyana səs verməyəcəklərinə. Mən sizlərə yuxarıda evində ilan, şir daha nə bilim nə böyüdənlərin sonradan öz sahibinə vəfasızlığı barədə misal gətirmişdim axı. Bax, Paşinyan əleyhdarlarına da ümid verən budur.

...Amma sizi bilmirəm, mən hələ də hakimiyyətdə olduğu üç ilə yaxın dövrdə erməni iqtisadiyyatına elə də bir uğur gətirməyən Nikolun bu ərəfədə Ermənistanda bu qədər fərari yetişdirdiyini anlaya bilmirəm(?).

***Ağasəf Babayev***

# Vüqar Rəhimzadə: Rusiya sülhməramlıları inamsızlıq mühitindən çıxmalıdırlar

*"Bu gün artıq heç kim üçün sirr deyil ki, İkinci Qarabağ müharibəsində dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın qazandığı möhtəşəm hərbi-siyasi Qələbənin və Ermənistanın kapitulyasiyasının təsdiqi olan 10 noyabr üçtərəfli Bəyanatından irəli gələn vəzifələrin icrasında tərəflərin hər birinin üzərinə böyük məsuliyyət düşür və onlar öz missiyalarını yerinə yetirmək üçün tələb olunan addımları atmalıdırlar.*



Sözügedən Bəyanatın imzalanmasından ötən 5 ayda daim gündəmdə olan məsələlər arasında "Rusiya sülhməramlıları özlərinin sülhyaratma missiyalarını düzgün yerinə yetirirlərmi", "Bəzi aparıcı dövlətlər və bir sıra beynəlxalq təşkilatlar Ermənistanın ərköyünlüyünə niyə susurlar", kimi suallar xüsusi yer tutur. Təəssüf ki, 44 günlük savaşda biabırçı məğlubiyyətə uğrayan işğalçı Ermənistan və regionumuzda sülhyaratma missiyasını öz üzərinə götürən Rusiya, eyni zamanda, dünyanın aparıcı dövlətləri və nüfuzlu beynəlxalq təşkilatlar postmüharibə dövrünün reallıqlarına konkret mövqe sərgiləmirlər. Günümüzün reallığı budur ki, məğlub durumda olan Ermənistan hakimiyyəti havadarlarının dəstəyinə arxalanaraq yenə də beynəlxalq humanitar hüququn tələblərinə məhəl qoymur. Təcavüzkar dövlət nümayişkaranə şəkildə işğaldan azad edilmiş torpaqlardakı minalanmış ərazilərin xəritələrini Azərbaycan tərəfinə verməkdən imtina edir, aparıcı dövlətlər və nüfuzlu beynəlxalq təşkilatlar isə Ermənistanın, necə deyərlər, bu cığallığı fonunda susmaqda davam edirlər. Şübhəsiz, həmin aparıcı dövlətlər və nüfuzlu beynəlxalq təşkilatlar Ermənistanın Azərbaycan ərazilərini işğalda saxladığı 30 ilə yaxın müddətdə bu tipli susmaların regionu hansı faciələrə sürüklədiyini, yalnız Müzəffər Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsi zamanı qazandığı tarixi Zəfərin Cənubi Qafqaz məkanında yeni reallıqlar yaratdığını bilməmiş deyillər. Amma bütün bunları bildikləri halda yenə də Ermənistanın bu kimi destruktiv addımlarını durdurmaq üçün beynəlxalq hüququn onlara verdiyi imkanlardan istifadə etməyə tələsmirlər". Bu fikirləri "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, noyabrın 10-da Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin imzaladıqları birgə Bəyanatla Azərbaycan Ordusunun döyüş meydanında Qələbəsi diplomatik cəbhədə də rəsmiləşdirildi: "Məhz bu reallığın fonunda tərəflərə münasibətdə sırf bitərəflik nümayiş etdirməli olan Rusiya sülhməramlılarının sual doğuran fəaliyyəti bir daha belə bir xatırlatmanı zəruri edir ki, bütün sülhməramlı missiyalar öz fəaliyyətlərində beynəlxalq hüquqa və BMT-nin baza prinsiplərinə əsaslanmalı, münaqişə bölgələrində yalnız sülhün və təhlükəsizliyin təmin edilməsinə çalışmalıdırlar. Başqa sözlə, tərəflərə münasibətdə qərəzsizlik və neytrallıq nümayiş etdirmək, əldə olunmuş razılaşmaların yerinə yetirilməsinə dəstək göstərmək sülhməramlıların başlıca vəzifəsi olmalıdır. Rusiya sülhməramlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ bölgəsində məhz bu vəzifələri yerinə yetirmək üçün yerləşdiriliblər. Daha dəqiq ifadə etsək Rusiya sülhməramlıları heç bir halda öz mandatlarından kənara çıxmamalı, birgə Bəyanatda nəzərdə tutulmuş vəzifələrin icrasını təmin etməlidirlər. Bəs bu gün biz reallıqda hansı mənzərəni görürük? Rusiya sülhməramlıları ötən müddətdə özlərinə qarşı etimad mühitini formalaşdıra biliblərmi? Düşünmürük ki, bu sualı cavablandırarkən sadəcə "hə" demək mümkündür. Ona görə ki, son vaxtlar Rusiya sülhməramlılarının öz mandatlarının tələblərini aşmaları tez-tez müşahidə olunmaqdadır. Xüsusilə Rusiya sülhməramlılarının Ermənistanın ayrı-ayrı dövlət və hökumət rəsmilərinin, o cümlədən nazirlərin Xankəndinə fasiləsiz qanunsuz səfərlərinə şərait yaratmaları, erməni qadınlarına 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə gül dəstələri ilə bayram təbriklərinin çatdırılması və xoş arzuların ifadə edilməsi, qondarma rejimin qondarma və cinayətkar, quldur "rəhbərləri" ilə mütəmadi görüşlər və digər hallar diqqətdən kənarda qala bilməz".

Baş redaktor diqqəti Vətən müharibəsindən sonra dövlətimizin başçısı İlham Əliyevin ATƏT-in Minsk qrupunun Fransadan və ABŞ-dan olan həmsədrlərini onların xahişləri əsasında qəbul edərkən səsləndirdiyi fikirlərə, işğalçı Ermənistana və ona havadarlıq edən dövlətlərə ünvanladığı mesajlara yönəldərək bildirib ki, həmin görüşdə Müzəffər Ali Baş Komandan sülhməramlıların fəaliyyətə başlamasından geniş bəhs edərək erməni yaraqlıları, yaxud "Ermənistan ordusu" adlandırılan terrorçular tərəfindən işğaldan azad edilmiş ərazilərimizdə terror aktlarının həyata keçirilməsi cəhdlərinin ciddi narahatlıq doğurduğunu önə çəkmişdir. Cənab İlham Əliyev bəyan etmişdir ki, Ermənistan Azərbaycanla yenidən müharibəyə başlamağa heç bir halda cəhd etməməlidir. Əgər erməni faşizmi yenidən baş qaldırarsa, onun başını dəmir yumruqla əzəcəyik.

"Təbii ki, bu kimi halların yenidən baş verməməsi üçün 10 noyabr Bəyanatını imzalayan dövlətlərin öz məsuliyyətləri vardır" söyləyən baş redaktor qeyd edib ki, Azərbaycan tərəfi üzərinə düşən vəzifəni layiqincə, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun yerinə yetirir. Azərbaycan və Rusiya prezidentləri arasında mütəmadi telefon danışıqları olur, bölgədəki mövcud vəziyyət, perspektivlər müzakirə edilir: "Lakin bütün bunlara baxmayaraq, işğalçı dövlət yenə də hər vəchlə Bəyanatdan irəli gələn vəzifələrin icrasından yayınmağa çalışır. Təcavüzkar dövlətin bu özbaşınalığına təcili son qoyulmalı, beynəlxalq təşkilatlar Bəyanatda əksini tapan Böyük Qayıdış proqramının uğurlu icrasında ilkin mərhələ olan minalardan təmizləmə prosesinin qısa zamanda başa çatmasına yardımçı olmaq məqsədilə minalı sahələrin xəritəsinin Azərbaycana verilməsi üçün Ermənistana təzyiq göstərməlidirlər".

V.Rəhimzadə, həmçinin diqqəti ATƏT-in Minsk qrupunun ABŞ-dan olan sabiq həmsədri Riçard Hoqlandın etiraflarına yönəldib. Bildirib ki, bu etiraflar Azərbaycan dövlətinin 30 ilə yaxın müddətdə ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyi barədə ən yüksək tribunalardan səsləndirdiyi fikirləri bir daha əyani surətdə təsdiq edir: "Vətən müharibəsindən sonra ATƏT-in Minsk qrupunun fəaliyyətinə ehtiyac varmı" kimi suallar gündəmin müzakirə mövzularıdır. Düşünmürük ki, sabiq həmsədrin məlum etiraflarından sonra qurumun fəaliyyətinə hansısa dərəcədə inam qalsın. Ümumiyyətlə, hesab edirəm ki, Müzəffər Azərbaycan Ordusunun 44 gün müddətində çözdüyü münaqişənin həlli prosesinin 30 il uzadılması ATƏT-in Minsk qrupunun vasitəçilik missiyasının aydın mənzərəsini yaradır. Amma qurumun fəaliyyətsizliyini və bunu şərtləndirən amilləri həmsədr ölkənin təmsilçisinin dilindən eşitmək daha ciddi düşünməyə çağırış edir. Bu etirafların davamlılığı Minsk qrupunun tərkibinin dəyişdirilməsi məsələsini yenidən gündəmə gətirə və quruculuq-bərpa dövrünün reallıqlarına uyğun olaraq qarşıya daha yeni vəzifələr qoya bilər. R.Hoqlandın etiraflarında da bu fikir öz əksini tapır ki, gördüyümüz işlər və o işlərin yerinə yetirilmə forması haqqımızdakı stereotiplərə tam uyğun idi. Həmin etirafda bu məqam da yer alır ki, Qarabağ münaqişəsi sadəcə, Azərbaycanla Ermənistan arasındakı problem deyil. Bu münaqişə əslində üçtərəfli, Rusiyanın əhəmiyyətli, hətta bəlkə də həlledici rol oynadığı məsələdir. Bu etiraf kontekstində deyə bilərik ki, Rusiya dövləti yalnız sülhməramlıların missiyalarından kənar fəaliyyətlərinin qarşısını almaq istiqamətində sərt addımlar atmaqla düzgün, ədalətli mövqeyə yol aça bilər. Etimadın növbəti addımlar üçün əsas amil olduğuna söykənərək deyə bilərik ki, Rusiya sülhməramlıları bu qiymətləndirməyə o zaman sahib ola bilərlər ki, tərəflərə münasibətdə neytral mövqe nümayiş etdirib yeni əməkdaşlıq formatlarının yaranması, regionda daimi sülhün təmin olunması üçün səylərini artırsınlar".

## Əgər, Paşinyan Rusiya ilə birgə separatizmi dəstəkləsə...



"Ermənistanın Baş naziri Nikol Paşinyanın Rusiyaya səfəri əsasən seçki öncəsi Rusiya ilə əlverişli müqavilələr bağlamaqla mövqeyini gücləndirməyi planlayırdı. Göründüyü kimi Rusiya prezidenti Paşinyana ona bu imkanı tanımadı. Ümumiyyətlə Paşinyan Rusiya üçün arzuolunmaz siyasi şəxsdi və demək olar ki, Paşinyanın israrı ilə belə bir görüş baş tutdu". Bunu SİA-ya açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib.

Siyasi şərhçi bildirib ki, Moskvada Putinlə görüş səmərəsiz və heç bir nəticə əldə olunmayan sırdan bir görüş kimi xarakterizə etmək olar: "Amma,Rusiya prezidenti V. Putinin Paşinyana Qarabağ separtaçıları ilə əlaqələri müntəzəm saxalmağı və dəstək verməsini istəyib. Çünki, Rusiya tərəfi münaqişənin qaldığını göstərmək istəyir. Bu da Kremlin regionda geosiyasi maraqlarına cavab verir. Birbaşa Rusiya prezidenti çalışır ki, Ermənistanla Azərbaycan arasında Qarabağ məsələsi aktual olsun. Rusiyada burada "barışdırıcı" rolu ilə mövqeyini saxlasın".

Ekspertin sözlərinə görə, Nikol Paşinyana seçki öncəsi Moskva ilə əlaqələr zəruri idi: "Ona görə buna getdi. Seçkidən sonra N. Paşinyan ölkəsində anti-Rusiya siyasətini davam etdirəcəyi gözlənilir. Paşinyanın Rusiya ilə əlaqələrinin zəifləməsi və onun Moskvadan əliboş qayıtması Azərbaycanın maraqlarına cavab verir. N. Paşinyan seçkidən sonra Qarabağda separatçılara görə Azərbaycanla əlaqələri korlamamaq siyasətinə üstünlük verəcəyi mümkündür. Əgər, Rusiya ilə birgə separatizmi dəstəkləsə, Rusiyadan asılılığı davam edəcək və öz hakimiyyətini riskə ata bilər. Ona görə də N. Paşinyan seçkidə qələbə əldə etdikdən sonra, Rusiyanın diktəsi ilə hərəkət etməyəcək".

M. Əsədullazadə vurğulayıb ki, seçkidən sonra N. Paşinyan prezident İlham Əliyevlə görüşmək istəyəcək: "Bu, görüşün Avropada baş tutması mümkündür. Ermənistanın blokadan çıxması prezident İlham Əliyevin siyasətindən asılıdır. Təbii ki, Ermənistan şərtlərə əməl etdikdən sonar".

***Aysel Məmmədova***

## Arzu Nağıyev: "Terrorçuların qaytarılması danışıqlar predmeti deyil"



"Paşinyanın Rusiya səfərinin əsas məqsədlərindən biri məhz seçki marafonuna başlamaq üçün "xeyir-dua" və təlimat almaqdan ibarət idi. Seçkidə isə ona mane ola biləcək əsas məsələlərdən biri də məhz itkin düşən əsgərlər və əsirlərlə bağlı məsələdir. Daha doğrusu o dəfələrlə bu şəxslərin valideynləri və qohumları ilə görüşlərində mütləq şəkildə onların qaytarılacağı sözünü verib. Lakin heç bir vədinə də əməl edə bilməyib. Azərbaycan tərəfi bu məsələdə bir neçə dəfə humanist addım atıb və dəyişdirilmə prosesində hərbi əsirlərdən qaytarıb. Lakin son vaxtlar ermənilər, istər özlərinin XİN səviyyəsində, digər qurumlar vasitəsilə dünya ictimayyətini Azərbaycana qarşı qaldırır". Bunu SİA-ya açıqlamasında Milli Məclisiz deputatı, siyasi şərhçi Arzu Nağıyev deyib.

Deputatın sözlərinə görə, mövzu da təbii ki, hərbi əsirlərlə bağlı olub: "Azərbaycan diplomatiyası, hökumət və qeyri -hökumət nümayəndələri, ictimai xadimlər, siyasətçilər və hətta deyərdim adi vətəndaşlar səviyyəsində ermənilərin bu yalanı da ifşa edilib. Əlacsız qalan Paşinyan çıxış yolu kimi artıq Rusiya rəhbərliyinə yalvarır. Təbii ki hüquqi baxımdan heç kim bizə təzyiq göstərə bilməz, bu Azərbaycanın daxili işidir və əfv etmək və ya kimi isə buraxmaq Azərbaycan rəhbərliyinin səlahiyyətindədir. Əslində nə baş verir!? Ermənilər öz qohumlarının qaytarılması tələbi ilə mitinq və nümayişlər keçirirlər, yollları bağlayırlar və s. Bu isə seçki öncəsi ən ciddi manеələrdir və Paşinyan buna görə tənqid obyektidir".

A.Nağıyev vurğulayıb ki, istər ermənilər, istər digərləri birmənalı şəkildə bilməlidirlər ki, biz tərəfdə olan ermənilər hərbi əməliyyatlar bitdikdən sonra, yəni 10 noyabr sazişindən sonra elə keçiriliblər və AR CM -nin ən azı 3 maddəsi ilə istər terrorçuluq, hərbi cinayətlər, muzdlu hərbi dəstələr yaratmaqda və s. ittiham edilirlər: "Bu günə qədər 60 nəfər qaytarılıb, sonuncu dəfə yanvarın 28 də biz 5 nəfəri qaytardıq. Erməni tərəfi isə keçən ilin dekabr ayının ortalarında antiterror əməliyyatı çərçivəsində Çaylaqqalada həbs edilən 62 nəfər terrorçunu və cinayətkarı istəyir. İstər Rusiya isər digərləri də bilir ki onlar hərbi əsirlər deyillər və məqsədləri terror anklavı yaratmaq cəhdi idi. Bir sözlə o şəxslərlə bağlı cinayət işləri qaldırılıb və istintaq gedir. Onların istər əfvi, istər ekstradisiyası Azərbaycan qanunlarına uyğun hal və danışıqlar predmeti deyil".

***Aysel Məmmədova***

# Aqrar sahənin inkişafı ərzaq təhlükəsizliyi üçün başlıca amildir

## *Azərbaycan Prezidenti: “Kənd təsərrüfatında məhsuldarlığın artırılması bizim üçün bundan sonra da prioritet məsələlərdən biri olacaq”*

***Kənd təsərrüfatı Azərbaycan iqtisadiyyatının tarixən ən mühüm sahələrindən biri olmuş, ölkənin ümumi inkişafında, əhalinin sosial-rifah halının yaxşılaşmasında, yeni iş yerlərinin yaradılmasında əhəmiyyətli rol oynamışdır. Ulu Öndərimiz Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1970-80- ci illərdə ölkənin kənd təsərrüfatı daha sürətlə inkişaf etmiş, Azərbaycan keçmiş sovet ittifaqının ən çox kənd təsərrüfatı məhsulları istehsal edən regionlarından birinə çevrilmişdir. Təəsüf ki, faşist xisləti Ermənistanın təcavüzü nəticəsində min hektarlarla əkinə yararlı torpaq sahələri yararsız hala düşmüşdür.***

yondan çoxdur. Deməli, istehlak artır. Daxili istehlakı təmin etmək və ixrac imkanlarımızı artırmaq üçün əlbəttə ki, qeyri-neft sektoru sahəsində kənd təsərrüfatının xüsusi yeri vardır. Təbii ki, suvarma aparılmadan, bu sahədə işlər düzgün istiqamətdə təşkil olunmadan biz hər hansı bir uğurdan söhbət apara bilmərik. Əldə edilmiş nailiyyətlərlə əlaqədar çox danışmaq olar, mən, sadəcə, əsas məqamları qeyd etmişəm”. “Meliorativ tədbirlər hər bir ölkə üçün xüsusi əhəmiyyət daşıyır, xüsusilə su ehtiyatları o qədər də böyük həcmdə olmayan ölkələrdə bunun daha da çılıqla məşğul olan təsərrüfatlarda məhsuldarlıq bir hektardan 50, 60, hətta 70 sentnerə çatır. Bu, Avropanın aparıcı ölkələrinin səviyyəsinə uyğundur və ona bərabərdir. Burada əlbəttə ki, təkcə suvarma işləri yox, eyni zamanda, digər tədbirlərin də xüsusi çəkisi var. Ancaq suvarma olmadan məhsuldarlıqdan söhbət gedə bilməz”.

“Biz son illər ərzində Azərbaycanda pambıqçılıq sahəsini demək olar ki, dirçəltmişik. Təqribən 5-6 il bundan əvvəl pambıqçılıq tamamilə məhv olmuşdu və ölkədə cəmi 20-30 min ton pambıq yığılırdı. Görülmüş tədbirlər nəticəsində

Ərazilərdə qəstən törədilmiş yanğınlar nəticəsində torpağın üst, münbit qatı və canlı aləm məhv edilmişdir. İşğal nəticəsində hidrotexniki qurğuların, kollektor- drenaj şəbəkələrinin, kanalların, su hövzələrinin dağıdılması küllü miqdarda vəsaitlə ölçülür və əgər torpaqlarımız işğal altında olmasaydı bu gün aqrar sahə daha sürətlə inkişaf etdirilər və iqtisadiyyatımızın ən qabaqcıl sahəsinə çevrilə bilərdi. Lakin bu gün düşmənə ağır, sarsıdıcı zərbələr endirən müzəffər ordumuzun, igid əsgər və zabitlərimizin sücaəti sayəsində işğal altında olan bütün ərazilərimizin sözsüz ki, erməni təcavüzkarlarından azad ediləcəyini reallaşdırır. Qələbə Azərbaycan iqtisadiyyatının, onun önəmli olan sahəsi kənd təsərrüfatının inkişafına da böyük təkan verəcək və işqaldan azad olunan torpaqlarımız insanların əliylə bol- bəhrəli taxıl, pambıq, üzüm sahələrinə çevriləcək, xarabazarlığa çevrilən şəhər və kəndlərimiz, ata- baba yurdları abadlaşacaq, üzə güləcəkdir. Hünər, zəhmət, ədalət, halallıq Azərbaycanı daha yüksək zirvələrə ucaldacaq, dövlətimiz öz rəhbərinin - cənab İlham Əliyevin siyasəti, əməli, torpağa, xalqa məhəbbəti, sədaqəti ilə daha da yüksələcək, şöhrətlənəcək və tarixə yeni-yeni qələbə səhifələri yazacaqdır.

### “Təhlil aparılarkən biz bir şeyə də rast gəldik - suyun ədalətsiz bölüşdürülməsi halları geniş vüsət almışdır”

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə təyin etdiyi yeni sədri videoformatda qəbul edərkən deyib ki, bundan sonra da kənd təsərrüfatı ilə məşğul olan vətəndaşlarımızı dəstəkləyəcəyik: “Biz bundan sonra da kənd təsərrüfatı ilə məşğul olan vətəndaşlarımızı dəstəkləyəcəyik. Artan subsidiyalar bunu bir daha göstərir. Bizim niyyətimiz, siyasətimiz dəyişməz olaraq qalır. Ancaq bununla bərabər, kənd təsərrüfatı ilə məşğul olan hər bir adam öz məsuliyyətini də dərk etməlidir”.

Dövlət başçısı onu da bildirib ki, suyun ədalətsiz bölüşdürülməsi halları mövcuddur: “Təhlil aparılarkən biz bir şeyə də rast gəldik - suyun ədalətsiz bölüşdürülməsi halları geniş vüsət almışdır. Burada həm mərkəzi icra orqanları, yerli icra orqanları, bəzi sahibkarlar elə bil ki, sövdələşərək, sudan vicdansızcasına istifadə edirdilər. Belə olan halda, bəzi fermerlərə, bəzi kəndlərə su çatmırdı. Mən göstəriş vermişdim, indi təhlil aparılır, araşdırma aparılır. Buna da son qoyulmalıdır. Su xətlərinin üzərində çoxsaylı qanunsuz birləşmələr quraşdırılmışdır. Təhlil aparılarkən biz buna da rast gəldik. Belə çıxdı ki, heç kim buna məsuliyyət daşımır, heç kim buna cavabdehlik daşımır. Buna son qoyulmalıdır. Mən göstəriş vermişdim ki, su xətləri üzrə həm vizual monitorinq aparılmalıdır, yəni, yerində, eyni zamanda, müasir müşahidə sistemləri - kameralar quraşdırılmalıdır və bu qanunsuz birləşmələrə son qoyulmalıdır”.

### “Sudan səmərəli istifadə edilməlidir”

“Eyni zamanda, sizin qarşınızda duran vəzifələrdən biri çatışmazlıqların aradan qaldırılmasıdır, idarəetmədə müasir yanaşmanın tətbiq edilməsidir, müasir texnologiyaların ölkəmizə gətirilməsidir. Çünki biz bundan sonra meliorativ tədbirləri, necə deyərlər, dədə-baba üsulu ilə apara bilmərik”.

Bunu Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən deyib.

O bildirib ki, dünyanın bu sahədə ən müasir texnologiyaları Azərbaycana gətirilməlidir, sudan səmərəli istifadə edilməlidir: “Bizdə mövcud problemlərdən biri də itkilərin böyük həcmdə olmasıdır. Bu itkilər bəzi hallarda təbii xarakter alır, amma bəzi hallarda səhlənkarlıq ucbatından baş verir. Uçotun olmaması əlbəttə ki, bizim işimizi çətinləşdirir. Ona görə tam uçot aparılmalıdır. Bizim su anbarlarımıza daxil olan və oradan çıxan suyun həcmi yaxın aylara qədər uçota alınmırdı. Düzgün təhlil aparmaq, proqnoz vermək üçün imkanımız yox idi. Ona görə itkilərin azaldılması ən vacib problemlərdən biridir”. Dövlət başçısı onu da bildirib ki, təqribən 5-6 il bundan əvvəl pambıqçılıq tamamilə məhv olmuşdu və ölkədə cəmi 20-30 min ton pambıq yığılırdı: “Görülmüş tədbirlər nəticəsində biz keçən il rekord göstəriciyə nail olduq - 330 min tondan çox pambıq yığıldı və hektardan məhsuldarlıq 33 sentnerdən çoxdur. Yəni, əgər sovet dövrünün ən uğurlu illəri ilə müqayisə etsək, deyə bilərik ki, ancaq sovet dövründə cəmi iki ildə hektardan məhsuldarlıq 33 sentnerdən çox olmuşdur. Yəni, bütün bunların təməlində məqsədyönlü siyasət və aidiyyəti qurumların koordinasiyalı şəkildə fəaliyyətinin təkmilləşməsi dayanır. Kənd təsərrüfatında məhsuldarlığın artırılması bizim üçün bundan sonra da prioritet məsələlərdən biri olacaq”.



Azərbaycan Prezidenti vurğulayıb ki, biz indi ərzaq təhlükəsizliyimizi təmin etmək üçün əməli addımlar atırıq: “Ölkəmizin imkanları, gözəl iqlim, bir neçə iqlim zonasının mövcudluğu bizə imkan verir ki, bir çox məhsullar Azərbaycanda yetişdirilsin”.

### “Məhsuldarlığın artırılması əlbəttə ki, bu işlərə daha böyük təkan verəcək”

Azərbaycan Prezidenti məhsuldarlığın artırılmasında deyilən işlərin aparılmasının vacib olduğunu söyləyib: “Biz nəzərə almalıyıq ki, Azərbaycan dövləti sürətlə inkişaf edir, tələbat artır, əhali artır. Sovet İttifaqı dağılanda Azərbaycan əhalisi 7 milyon idisə, bu gün 10 milböyük əhəmiyyəti var”,- deyən dövlət başçısı su anbarlarının, su kanallarının tikintisi infrastruktur layihələrin həmişə prioritet olduğunu bildirib: “Bir daha demək istəyirəm ki, su anbarlarının, su kanallarının tikintisi infrastruktur layihələr arasında həmişə prioritet yerdə olub və bundan sonra da belə olacaq. Bütün bu işlərlə bərabər, biz əlbəttə ki, suyun səmərəli istifadəsindən də həmişə narahat idik”.

### Dövlət başçısından bir daha sərt mesaj

Azərbaycan Prezidenti bildirib ki, bu sahədə əldə edilmiş uğurlar var, eyni zamanda, çətinliklər var, çatışmazlıqlar var. Bunlar aradan qaldırılmalıdır: “Amma bütövlükdə son illər ərzində kənd təsərrüfatının dayanıqlı inkişafı, o cümlədən su təminatının səmərəliliyi ilə bilavasitə bağlıdır. Biz son illər ərzində vaxtilə suvarılmayan torpaqlara su gətirmişik. Bu torpaqların həcmi 100 min hektarlarla ölçülür. Vaxtilə, ümumiyyətlə, su görməyən torpaqlara, yaxud da ki, qismən suvarılan torpaqlara suyun verilməsi bu bölgələri canlandırdı və 100 minlərlə hektar torpağa su verildi.

Bu gün biz kənd təsərrüfatının müxtəlif sahələrində bu siyasətin təzahürlərini görürük. Bizim bəzi iri fermer təsərrüfatlarımızda, taxılbiz keçən il rekord göstəriciyə nail olduq - 330 min tondan çox pambıq yığıldı və hektardan məhsuldarlıq 33 sentnerdən çoxdur”,-deyən Azərbaycan Prezidenti bildirib ki, bütün bunların təməlində məqsədyönlü siyasət və aidiyyəti qurumların koordinasiyalı şəkildə fəaliyyətinin təkmilləşməsi dayanır. Kənd təsərrüfatında məhsuldarlığın artırılması bizim üçün bundan sonra da prioritet məsələlərdən biri olacaq: “Biz indi ərzaq təhlükəsizliyimizi təmin etmək üçün əməli addımlar atırıq. Ölkəmizin imkanları, gözəl iqlim, bir neçə iqlim zonasının mövcudluğu bizə imkan verir ki, bir çox məhsullar Azərbaycanda yetişdirilsin. Məhsuldarlığın artırılması əlbəttə ki, bu işlərə daha böyük təkan verəcək. Biz nəzərə almalıyıq ki, Azərbaycan dövləti sürətlə inkişaf edir, tələbat artır, əhali artır. Sovet İttifaqı dağılanda Azərbaycan əhalisi 7 milyon idisə, bu gün 10 milyondan çoxdur. Deməli, istehlak artır. Daxili istehlakı təmin etmək və ixrac imkanlarımızı artırmaq üçün əlbəttə ki, qeyri-neft sektoru sahəsində kənd təsərrüfatının xüsusi yeri vardır. Təbii ki, suvarma aparılmadan, bu sahədə işlər düzgün istiqamətdə təşkil olunmadan biz hər hansı bir uğurdan söhbət apara bilmərik”.

**RƏFİQƏ KAMALQIZI**

# Viqen Akobyan: “Putin və Paşinyan “Oyun qaydaları” ilə razılaşdılar”

*Ermənistan baş nazirinin Moskvaya səfərindən əvvəl də seçki məsələsinin də gündəmdə olacağı elan edildi - çox güman ki, tərəflər seçkilərin keçirilməsi şərtləri barədə razılığa gəldilər. Rusiya prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan, çox güman ki, qarşıdakı seçkilər zamanı “oyun qaydaları” barədə razılığa gəldilər. SİA xəbər verir ki, bu sözləri siyasi məsləhətçi Viqen Akobyan bir gün əvvəlki iclası şərh edərkən Sputnik Ermənistana söyləyib.*



Qeyd edək ki, Rusiya prezidenti ilə Ermənistanın baş naziri arasında medianın iştirakı ilə keçirilən görüş bir neçə dəqiqə davam edib və bundan sonra iki ölkənin liderləri qapalı iş formatına keçiblər. Siyasi strateqə görə, Paşinyanın Moskvaya bu səfəri heç bir halda “növbətçi” kimi qəbul edilə bilməz. Erməni baş nazir üçün bu ilk növbədə seçkiqabağı proseslər kontekstində vacib olsa da, Moskva üçün qarşıya qoyduğu məsələləri həll etməyə çalışdığı vacib bir iş toplantısıdır.

“Hər halda, bu iclasın özəlliyi seçkiqabağı fon idi. Eyni zamanda Paşinyan tərəfindən ən azından ictimaiyyət qarşısında qaldırılan məsələlərin birbaşa seçki gündəliyi ilə əlaqəli olduğunu qeyd etmək lazımdır”, deyib strateq.

Nəzərə çatdırılır ki, məsələn, hərbi əsirlər kimi ortaya atılan qondarma məsələsinin də seçki kampaniyası başlamazdan əvvəl həll edilməsi çox vacibdir Paşinyan üçün. Əks təqdirdə baş nazirin mövqelərinə ciddi zərbə vurulacaq. Bəlkə də bunun müqabilində Paşinyan razılaşmaları düzəltməyə, vəziyyəti sabitləşdirməyə və bölgədəki kommunikasiyaların kilidini açmağa çalışan Rusiyanın gündəmi ilə razılaşmağa hazırdır.

“Ən əsası, Paşinyanla görüşdükdən və rəqibi Robert Koçaryanla telefon danışıqları apardıqdan sonra Putin əslində hər birinin Qarabağdakı həll üçün “qırmızı xətt”in olduğu yerləri anlamaq istəyib”, deyə siyasi məsləhətçi qeyd edib.

O, diqqətə çatdırıab ki, Moskvaya səfəri zamanı Paşinyan seçki kampaniyası üçün vəziyyəti maksimum “sıxmağa” çalışıb. Qondarma məhbus problemi ilə yanaşı, Rusiyanın bu mövzuya həssas olduğunu və yeni bir nüvə stansiyası inşasını da yaxşı bildiyindən Sputnik V peyvəndi məsələsini də qaldırıb. Putinin son suala isə heç bir reaksiya verilməyib, çox güman ki, bu, Rusiya gündəmində deyil.

Ekspert hesab edir ki, Sputnik V peyvəndinin Ermənistanda qeydiyyata alınıb-alınmaması barədə sual Rusiya prezidenti tərəfindən təsadüfən verilməyib. Əslində, Ermənistanda müsbət cavab verən Paşinyanın açıqlamasını düzəltməyə çalışıblar. Baş nazirin qaldırdığı bütün suallar bu və ya digər şəkildə birbaşa və ya dolayısı ilə seçkilərlə əlaqəli olub.

Görüşün nəticələrinə gəldikdə isə, hansıki, Paşinyan guya onlardan məmnun olduğunu bildirib, bəzi məsələlərdə tərəflər konkret razılaşmalar əldə edə bilərdilər, amma, bunlar qısamüddətli gündəliyə aid ola bilər. Eyni zamanda, siyasi məsləhətçinin fikrincə, rəsmi mesajların olmamasına baxmayaraq, Ermənistanda seçkilər məsələsi də müzakirə olunub. İclasdan əvvəl bunu Putinin mətbuat katibi Dmitri Peskov da söyləyib. Məhz buna görə, Akopyanın fikirlərinə əsasən, səfərdən əvvəl, Ermənistan baş naziri seçkilərin ədalətli olacağını söyləyərək, digər qüvvələrin, xüsusən də Robert Koçaryanın iştirakında maraqlı olan Rusiya rəhbərliyinə müəyyən zəmanətlər verməyə çalışıb.

“Düşünürəm ki, bu da müzakirə olundu və “oyun qaydaları”nda razılığa gəlindi. Başqa bir sual, bunlara riayət ediləcəyi ilə bağlı ola bilər”, deyə siyasi strateq əlavə edib. Akobyanın müşahidəsinə görə, ehtimal ki, postsovet məkanında ilk dəfə Rusiya hakimiyyəti yaxınlaşan seçkilərin fonunda mütləq bərabərlik nümayiş etdirir, həm Robert Koçaryanın şəxsində, həm də müxalifətlə münasibətdə. Bundan əvvəl isə Moskva yalnız mövcud hakimiyyət orqanları ilə qarşılıqlı əlaqədə olub.

Qeyd olunur ki, rəsmi olaraq, Rusiyanın Ermənistanın “daxili işi” nə istinad edərək bu hesabla bağlı hər hansı bir açıqlama verməsi ehtimalı yoxdur. Ancaq Ermənistan rəhbərliyi yaxın aylarda Rusiya hakimiyyət orqanlarının çox güman ki, rəsmi qurumlarla deyil, müxalifətlə də qeyri-rəsmi şəkildə işləyəcəyinə hazır olmalıdır.

Xatırladaq ki, Ermənistanda növbədənkənar seçkilər gözlənilir. Bu ölkə müxalifəti baş nazir Nikol Paşinyanın və onun komandasının hakimiyyətdən getməsi üçün çalışır. Paşinyan isə öz hakimiyyətini qorumağa çalışır və bu fonda erməni cəmiyyəti hadisələri izləmək məcburiyyətindədir. Heç şübhəsiz ki, erməni baş nazir də Rusiyaya səfər etməkdə yalnız öz hakimiyyətini qorumağa çalışır və ekspertin fikirlərində də bu aydın şəkildə ifadə olunur.

***İnam Hacıyev***

# Cılız erməni politoloqun özü kimi cılız fikirləri...



“Əgər Paşinyan yenidən erməni rəhbərliyinə gətirilsə, deməli, Ermənistan dünya xəritəsindən silinəcək”. Bu fikiri erməni saytına Özbəkistanda doğulub, hazırda rusların qanadı altına sığınaraq Ermənistan “təəsüfü çəkən” politoloq Semyon Baqdasorov bildirir. SİA bunu erməni saytlarına istinadən yazır. Bilirsiniz, Baqdasorovu daha çox qorxudan nədir? Son zamanlar əksər ermənilərin Türkiyəyə meyl etməsi. Baqdasorov həmişə olduğu kimi, bu dəfə də türklərin ünvanına xeyli “ittiham”lar səsləndirir. Təbii ki, o burada ruslara yalmandığını da gizlədə bilmir.

Deyir, müharibədə qələbə qazanan Azərbaycan indi də Ermənistanı xəritədən silməyə çalışır. Baqdasorov azərbaycanlıların bunu türklərin köməyi ilə həyata keçirməyə çalışdıqlarını bildirir. “Kişinin oğlu” özünə sərf edən misallar da gətirir. Deyir, baxın, bu gün Acarıstanda nələrin baş verdiyinə diqqət yetirin...

Semyona görə, Acariyanda əhalinin xristian hissəsi artıq müsəlmanlaşmaya doğru gedir. Çünki türklər Acariyada hər şeyə və oradakı hər kəsə nəzarət edirlər. Son üç ildə bu ölkədə türklərin 150-yə qədər məscid tikdirdiyini bildirən Baqdasarov Acariyada hər şeyin İslam dini strukturları vasitəsi ilə həyata keçirdiklərini bildirir. Erməni politoloqa görə, Acariyada hər şey

Türk Cümhuriyyəti Ruhani İdarəsi tərəfindən idarə olunur, yəni orada imamlar təyin edilir. Acariyada işdə bir az uğur qazanmaq, mənzil alqı-satqısında endirimlər etmək istəyirsənsə, bunun üçün məscidə, yəni türklərə müraciət etməlisən. Qeyd edək ki, Baqdasarov bu aqibətin Ermənistanı da gözlədiyini istisna etmir. Onun fikrincə, amma bu Ermənistanda daha pis ola bilər.

Baqdasarov daha sonra deyir ki, əgər Türkiyə Ermənistanla sərhədi açsa, bu vaxt Türkiyə və Azərbaycan xüsusi xidmət orqanları Ermənistana iqtisadi və siyasi bir şəkildə Türkiyənin genişlənməsini gətirəcəkdir. Bu isə tədricən Ermənistan dövlətçiliyinin məhv olmasını gətirəcək. Yəni türklər hər cür iqtisadi vədlər hesabına erməni dövlət hakimiyyəti sisteminə nüfuz edəcəklər. Baqdasarova görə, dedikləri artıq baş verir. Onun fikrincə, bunu anlamaq üçün hazırkı hökumət nümayəndələrinin çıxışlarını dinləmək kifayətdir: “Bütün bunların nəticəsi Ermənistan dövlətçiliyinin məhvidir, buna əmin ola bilərsiniz”.

Yeri gəlmişkən, Baqdasarov, bəzi ermənilərdən fərqli olaraq, çörəyini yediyi ölkənin ünvanına xoş sözlər deməyi, yəni ruslara yalmanmağı da unutmur. Qərbin Rusiyaya əks çəki kimi qəbul edilən Türkiyədən “imtina etməkdə” maraqlı olduğunu bildirir. Erməniyə görə, Qərb üçün təsir dairəsini Ermənistan hesabına genişləndirmək daha faydalıdır(...yiyən ölsün!).

Ermənistanda iyunun 20-də keçiriləcək seçkinin baş tutacağına ümid bəsləyən Baqdasarov erməniləri Nikol Paşinyana səs verməməyə çağırır. Çünki, erməni politoloqa görə, əgər Nikol yenidən seçilsə, bu zaman Ermənistan dövlətini artıq unuda bilərsiniz. Bu isə, təkcə Ermənistan sakinləri üçün deyil, həm də bütün dünya erməniliyi üçün bir məğlubiyyət olacaq. Yəni erməni kimliyi məhv ediləcək.

...Bunları deyənin, təkcə türk dünyasına deyil, ümumiyyətlə, İslam dünyasına düşmən kısılən cılız bir erməninin elə özü kimi cılız düşüncələri olduğunu da unutmaq lazım deyil.

***Ağasəf Babayev***

# “Ermənistan Rusiyadan tam asılı ölkədir”



***“Rusiya prezidenti Vladimir Putinin əvvəl Koçaryanı, sonra da Paşinyanı Moskvaya dəvət etməsində məqsədi 20 iyunda keçiriləcək seçkilərdə kimə dəstək verəcəklərini müəyyənləşdirilməsi üçün test aparıldığını düşünürəm. Koçaryanı Vladimir Poznerin verlişində ORT kanalında sual-cavab etdirərək əgər baş nazir seçilərsə onun tutacağı dəst-xətti hansı istiqamətdə olacağının öyrənilməsi xarakteri daşıyır. Müsahibədən məlum olur ki, Koçaryanın məqsədi düşmənçilik meyllərdən əl çəkməmək, yüksək səviyyədə imzalanmış üçtərəfli bəyanatın icrasına mane olmaq və Türkiyə ilə sərhədlərin açılmasına yol verməməkdir”. Bunu millət vəkili Azər Badamov “Səs” qəzetinə açıqlamasında bildirib.***

Onun sözlərinə görə, burda bir nəticə çıxarmaq olar ki, Koçaryan testdən keçə bilmədi. Koçaryanın bu planları Rusiyanın regiondakı siyasətinə ziddir və ona görə də, prezident Putin Paşinyanı qəbul edərək onun xahişlərini dinlədi. Prezident Putinlə baş nazir Paşinyan arasında baş tutan görüşündən bir nəticə çıxarmaq olar ki, qarşıdan gələn parlament seçkilərində Rusiya Paşinyanın yenidən seçilməsinə dəstək verəcəkdir: “Çünki dövlət başçıları tərəfindən imzalanmış üçtərfli bəyanat Paşinyanın hakimiyyətdə olmasıyla icra olunacaqdır və Rusiya bu bəyanatın bütün maddələrin həyata keçirilməsinə zəmanətdir. Bu, Qarabağın erməni silahlılarından təmizlənməsi, kommunikasiyaların açılması, regionda dayanıqlı və uzunmüddətli sülhün əldə olunmasıdır. Ona görə də, seçki qabağı kompaniyasının effektiv aparılması üçün görüşdə Paşinyanın xahiş etdiyi bəzi məsələlərin həllinə də Rusiya dəstək verəcəkdir. Həm də görüşdə Ermənistandakı əsas kapitalının 40% -dən çoxunun Rusiyanın olduğunun xatırlaması da gələcəkdə yenidən seçilləndən sonra Paşinyanın regionda əməkdaşlıq mühütinin yaradılmasına və inkişafına töhfə verməli olduğunu göstərir. Ermənistan Rusiyadan tam asıllı ölkədir. Bu ölkənin müstəqil siyasəti yoxdur. Ona görə də, Putin seçki qabağı Paşinyanı dəvət etməklə yenidən hakimiyyətə qayıdandan sonra müəyyənləşdirəcəyi siyasəi kursunun istiqamətlərini Rusiyanın istəyi ilə olmalı olduğunun təsdiqini almışdır”.

***Gülyana***

# Zərifə Quliyeva: “Xalqın böyük inam və etimadını qazanan vədinə sadiq Prezident”

*“Aprelin 11-də Azərbaycan xalqı müstəqillik dövrünün 8-ci prezident seçkisində öz liderini müəyyənləşdirdi. Cənab İlham Əliyev növbəti dəfə ümummilli etimadı qazanaraq Azərbaycan Prezidenti seçildi. Əslində, bu qələbə tam gözlənilən idi. Çünki ötən 15 il ərzində Azərbaycanı tarixin bütün dövrlərinin ən möhtəşəm və qüdrətli dövləti səviyyəsinə yüksəltməyə müvəffəq olan liderin alternativsizliyi birmənalı ictimai rəy idi və xalqın seçimi bunu bir daha isbatladı”.Bu fikirləri YAP üzvü, “Modern ailə və inkişaf” İctimai Birliyinin sədri Zərifə Quliyeva SİA-ya açıqlamasında bildirib.*



Zərifə Quliyeva bildirib ki, 17 il öncə, 2003-cü ildə ulu öndər Heydər Əliyev xalqa müraciət edərək aşağıdakı fikirləri səsləndirmişdi: “İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”. 17 il əvvəl ulu öndər bu fikri ilə Azərbaycan xalqına onun alternativsiz siyasi kursunu davam etdirə biləcək ünvanı göstərdi. Çünki ulu öndər tam əmin idi ki, müstəqil Azərbaycanın işıqlı gələcəyi üçün müəyyənləşdirdiyi inkişaf strategiyasını ancaq İlham Əliyev gerçəkləşdirə bilər. Həqiqətən də Azərbaycan xalqı 2003-cü ildə etdiyi seçimində yanılmadı. Çünki Prezident İlham Əliyev verdiyi bütün vədlərə sadiqlik nümayiş etdirərək xalqın inamını, etimadını qazandı”.

Z.Quliyeva bildirdi ki, bu gün ölkəmizdə gedən prosesləri izləyən və bu proseslərə vicdanla yanaşan hər bir siyasətçi etiraf edir ki, Azərbaycan cəmiyyətində demokratiyanın təməl prinsipləri mövcuddur və yaradıcılıqla inkişaf etdirilməkdədir: “Aşkarlıq, şəffaflıq, söz, mətbuat, etiqad azadlıqları Azərbaycan Konstitusiyası ilə təsbit olunmuş və dövlətimizin fəaliyyətinin prioritet cəhətlərindən biri kimi vətəndaşların həyatında əksini tapmaqdadır. Xalq 2018-ci il aprelin 11-də keçirilən seçkilərdə xalq növbəti 7 il üçün ölkənin taleyini kimə tapşıracağını müəyyənləşdirdi. Etiraf etmək lazımdır ki, hələ seçkilər ərəfəsində bütün siyasi, ictimai təşkilatların xalqın iradəsi haqqında dəqiq məlumatları var idi. Etiraf etmək lazımdır ki, xalq İlham Əliyev fenomeninin nəyə qadir olduğunu, hakimiyyətə gəlişinin məramını hələ 17 il əvvəl görmüş, ona inam göstərmişdi. Bu seçkilər həm də onu sübut etdi ki, bu gün Azərbaycanda cənab İlham Əliyevin qarşısına rəqib kimi çıxmağa, onunla seçki yarışına girməyə hazır olan siyasətçi yoxdur. Elə İlham Əliyevin 3 milyon 397 min 664 (86.03 faiz) seçicinin səsini qazanması bunu təsdiqləyən faktdır”.

Zərifə Quliyeva onuda bildirdi ki, dövlət başçısı əldə olunan Qələbə zamanı xalqa müraciətində də bildirmişdir ki, Azərbaycanda bundan sonra da Heydər Əliyevin siyasətini davam etdirəcək: “Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm”,-deyərək son 17 illik Prezidentlik fəaliyyətinin nəticəsidir ki, son 30 il ərzində həsrətində olduğumuz Qarabağ Azərbaycandır!ımıza, haqq və şərəf işimiz olan, Azərbaycan Respublikamızın suverenliyi və ərazi bütövlüyümüzə və nəhayət Qələbə Zəfərimizə nail olduq!. Məzh hər sözü, hər vədi reallığı çevirən hər bir azərbaycanlı dünyanın harasında olmasından, harada yaşamasından asılı olmayaraq, öz dövləti, öz Prezidenti və Onun zəfərləri ilə haqlı olaraq qürur duyur, azərbaycanlı olmağı ilə fəxr edir. Çünki 28 il “kaş ki...” arzularımız “kaş ki” olmadı, arzularımız reallaşdı. Xüsusilə də Novruz tonqallarımız arzusunda olduğumuz Şuşamızda, Cıdır düzündə qeyd olundu. Müdriklər deyir ki, rəhbərin ən böyük qələbəsi xalqın etimadı, inamı və sevgisidir. Azərbaycan xalqı 11 aprel prezident seçkilərində alternativsiz liderinə olan böyük inam və sarsılmaz dəstəyini bir daha nümayiş etdirdi”.

**R.HÜSEYNOVA**

# Məşhur Məmmədov: “Ötən 3 il sübut etdi ki, xalq 11 apreldə öz seçimində yanılmayıb”

*“11 aprel seçkisi xalqın öz Prezidentinə və iqtidarına inamını, güvənini bir daha rəsmi şəkildə müəyyənləşdirdiyi tarixdir və bu tarixdə xalqımız və dövlətimiz üçün çox əlamətdar hadisə baş verdi. 11 aprel 2018-ci il tarixdə xalq müdrik bir seçim edərək Cənab İlham Əliyevi növbəti dəfə Prezident seçdilər.*



Xalqımız öz layiqli və ədalətli seçimini edərək sabitliyin, dinamik inkişafın, uğurlu daxili və xarici siyasətin dəstəkləndiyini bir daha təsdiqlədi və bu gün 30 il öz doğma yurduna, dədə-baba torpaqlarına həsrət qalan 1 milyondan çox soydaşlarımızın həsrətinə 44 gün ərzində son qoydu, Qarabağ Azərbaycanımızı özümüzə qaytardı, haqqın, ədalətin, ərazi bütövlüyümüzün bərpa etdi. Və bir daha bütün türk dünyası, bütün dünya gördü ki, 11 aprel 2019-si ildə keçirilən növbədənkənar prezident seçkisində xalqımız bir daha öz seçimində yanılmayıb və yeganə düzgün qərar qəbul edib”.Bu fikirləri Milli Məclisin deputatı Məşhur Məmmədov SİA-ya açıqlamasında da deyib.

Azərbaycanda seçkilərin azad və şəffaf keçirildiyini deyən millət vəkili M.Məmmədov bildirdi ki, seçkilərin nəticələri bir daha Azərbaycan xalqının Heydər Əliyev siyasətinə sadiqliyini nümayiş etdirdi: “Əslində, ümummilli lideimiz Heydər Əliyevin xeyirduası ilə 2003-cü ildən başlanan yolu, Cənab İlham Əliyev yeni tarixə şəraitə, yeni çağırışlara uyğun olaraq uğurla və qətiyyətlə davam etdirir. Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin seçkilərdə parlaq qələbə qazanması Azərbaycan vətəndaşlarının sabitliyə, təhlükəsizliyə və davamlı inkişafa səs verməsinin əyani ifadəsidir. Azərbaycan xalqı doğru seçimini etməklə özünün siyasi iradəsini bütün dünyaya bir daha çatdırmış oldu. Bu qələbə bütövlükdə Azərbaycan xalqının, lider-xalq birliyinin sarsılmaz olduğunu bir daha sübut etməklə, həm də Azərbaycanda demokratiyanın növbəti təntənəsi oldu. Ötən 3 il sübut etdi ki, xalq 11 apreldə öz seçimində yanılmayıb və yeganə düzgün qərar qəbul edib. Son iki ildə cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmiz bütün sahələrdə böyük uğurlara imza atılıb. Ən böyük uğurumuz isə 44 gün davam edən İkinci Vətən Müharibəsində Zəfər Qələbəmiz oldu. Dövlət başçımızın dediyi kimi: “...Gəlmişik və qayıtmışıq. Düşməni qovmuşuq torpaqlarımızdan, Azərbaycanın Dövlət bayrağını ucaltmışıq. Bundan sonra bu torpaqda biz yaşayacağıq, necə ki, əsrlərboyu biz yaşamışıq, bizim xalqımız yaşayıb...”. Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev düşmən tapdağından azad edilən Füzuli şəhərinə üçrəngli şanlı bayrağımızı ucaldanda demişdi. Bəli, 30 ildən sonra düşməni doğma torpaqlarımızdan qovduq və öz elobamıza, dədə-baba yurdumuza qayıtdıq. Müqəddəs bayrağımızı bir daha enməmək şərtilə ucaltdıq. Və bunu qələbəmizin memarı İlham Əliyev etdi. Müzəffər Ali Baş Komandan doğma Qarabağımıza qalib xalqın qalib sərkərdəsi kimi qədəm qoydu. Özü də Ermənistanla üçtərəfli bəyanat imzalanandan 6 gün sonra...”

“Bugünkü müstəqil Azərbaycan tarixdə heç zaman olmadığı qədər güclüdür”-deyən Məşhur Məmmədov onu da bildirdi ki, 2003-cü ildən başlanan islahatlar, son iki ildə həyatımızın bütün sahələrini əhatə etməklə cənab Prezidentimizin təşəbbüsü və rəhbərliyi ilə daha qətiyyətlə, əzmlə və uğurla davam etdirilir və öz nəticələrini verir. Ölkəmiz bütün sahələrdə heç vaxt olmayan uğurlar qazanır. Azərbaycanda ictimai-siyasi sabitlik hökm sürür: “Bütün bu uğurların kökündə xalqla iqtidarın sarsılmaz birliyi, cənab İlham Əliyevin yorulmaz fəaliyyəti dayanır. Bu günkü dünyanı cənginə alan koronavirus pandemiyası dövründə cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hökumətinin gördüyü tədbirlər əhali tərəfindən yüksək dəyərləndirilir və ölkə rəhbərinə olan inamını, sabaha ümidini daha da artırır. Azərbayca xalqı əmindir ki, onun taleyi etibarlı əllərdədir, sabahımız bu günümüzdən daha gözəl və firavan olacaqdır. Cənab Prezidentimiz İlham Əliyevə uğurlar diləyir, Onun apardığı siyasəti dəstəkləyir və hər zaman birlikdə olduğumuzu bəyan edirik”.

**R.HÜSEYNOVA**

# Sevak Akopyan: “Əsirləri Rusiya qaytarır, hakimiyyət isə öz piarını aparır”




“Nikol Paşinyan aprelin 7-də əsirlərin geri qaytarılmasını xahiş etdi. Biz ilk dəfə gördük ki, Nikol Putindən əsirlərin geri qaytarılması üçün birbaşa kömək istəyir”. SİA xəbər verir ki, bunu “Qısa danışarsaq” verlişinin aparıcısı Sevak Akopyan deyib. “Onlar bizə artıq 5 aydır ki, məsələ ilə bağlı maraqlandırdıqlarını deyirlər və bildirirlər ki, mitinqlər keçirməyə ehtiyac yoxdur, məsələ bu gün-sabah həll ediləcək”, deyən Akopyan onu da qeyd edib ki, Ermənistana qaytarılan 70 əsir Rusiyanın dəstəyi ilə ölkələrinə geri dönüblər. “Lakin buna baxmayaraq, Araik Arutyunyan və Nikol Paşinyan və Avinyan Tiko yalnız özlərini reklam ediblər”, verilişdə deyilir.

**Rövşən RƏSULOV**

# “Joxovurd” qəzeti: “Ermənistanda zəncirvari bahalaşma”



“Ermənistanda əsas ərzaq məhsulları bahalaşır. Yumurta, günəbaxan yağı və digər ərzaq məhsullarının qiymətlərindəki artımın ardınca un məhsulları və hətta çörəyin qiymətində də bahalaşma müşahidə olunur. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu zəncirvari qiymət artımı ilə əlaqədar olaraq vətəndaşlar davamlı olaraq “Joxovurd” qəzetinin redaksiyasına zənglər edirlər.

Qeyd olunur ki, dünən unun qiymətinin kəskin artdığını məlum olub. Məsələn, 10 kq unun qiyməti 2400 dramdan 2800 drama yüksəlib. Hazırda 50 kq yüksək keyfiyyətli buğda ununun qiyməti 12400 dramdan 13500 drama qədər artıb, halbuki bir neçə ay əvvəl təxminən 12 min drama satılırdı. Ancaq birinci dərəcəli un indi 11 800-12000 dram qiymətinə satılır, halbuki əvvəllər bu çeşid çox ucuz idi.

**İnam Hacıyev**

# “5-ci kalonun” pusquda yatan satqın köpəkləri...

## Və yaxud birinin yalı o birisindən çox olan dələduzlar

*Vaxtilə Lenin deyirdi ki, kapitalizmə xas olan lənətə gəlmiş maddi maraq prinsipi sosializm üçün də keçərlidir. Əlavə edək ki, lənətlənmiş prinsip həm də milli dövlətçilik üçün də xarakterikdir. Politologiyadan məlumdur ki, kasıb ölkələrin vətəndaşları xarici ölkələrin mənafeyinə muzdlu xidmət etməkdə maraqlı olurlar.*



Bir anlığa bütün dünyaya səs salan 44 günlük müharibənin qələbə ilə başa çatması dostları sevindirdiyi kimi, düşmənləri də kədərə və yasa qərq etdi. Təəssüf ki, ölkədə də bu qələbədən sevinməyənlər tapıldı. Onlar pərtliklərini müxtəlif bəhanələr altında gizlətməyə çalışırlar. Çünki “5-ci kalonun” pusquda yatan satqın köpəkləri Paşinyan xarakterli həyasız, tərbiyəsiz və satqınlardır.

### Əli Orucov: “5-ci kalon” əllərindən gələn pislikləri etsələr də, bu pisliklərinin qarşılığını görəcəklər”

AMİP funksioneri Əli Orucovun sözlərinə görə, Azərbaycan geopolitik vəziyyəti nəzərə alıb zəfər üçün nə mümkün idi onu da edə bildi: “Bəziləri indi haray-şivən qoparır ki, niyə Xankəndinə kimi gedib erməniləri qovmadıq və s. Nəzərə almaq lazımdı ki, bir sıra böyük güclər heç müharibənin başlamasına imkan vermək istəmirdilər. Azərbaycana Ermənistanın böyük bacısı Fransa, Rusiya və digər xristian Qərb dövlətləri ciddi təzyiqlər edirdilər ki, müharibə dayandırılsın. Lakin Cənab Prezident bu təzyiqlərə baxmadan mümkün olanlardan da artığını etdi. Daxildəki bədxahlar, eləcə də “5-ci kalon” əllərindən gələn pislikləri etsələr də, bu pisliklərinin qarşılığını görəcəklər. Necə ki, indiyədək belə olub. Xalq belə adamların cavabını özü verib, bundan sonra da verəcək. Biz qalib xalq olaraq bundan sonra böyük qayıdışa hazırlaşmalı və bu çətin məsuliyyətli proseslərlə məşğul olmalıyıq”.

Sözsüz ki, bu bir reallıqdır ki, xaricdə oturub erməni dəyirmanına su tökmək, Azərbaycan dövləti haqqında qərəzli fikirlər səsləndirmək, təxribatçı video-roliklərlə cəmiyyətimizdə çaşqınlıq yaratmağa cəhd etmək heç kimə, eləcə də, heç bir ailəyə başucalığı gətirməz.

Bax, bu gün özünü “müxalifətçiyəm” deyən satqın, xəyanətkar, xarici beynəlxalq təşkilatların işlədilmiş alətinə çevrilən və “5-ci kalon” deyilən dələduzlar kalonunda iylənən mənəviyyatsız və tərbiyəsizlər - AXCP sədri Əli Kərimli və onun ipli kuklası, “Milli Şura”nın sədri Cəmil Həsənli, çörəyi dizinin üstündə olan satqın Gültəkin Hacıbəyli, ingilis ruporu mənəviyyatsız Sevinc Osmanqızı və bu kimi vücudları belə erməniləşən, ermənidən betərlərdir. Çünki antiazərbaycan dairələrin əlində alətə çevrilən və millətimizin adına ləkə olan bu satqınlar Azərbaycana qarşı çirkin təbliğat aparanlardır. Onları narahat edən səbəb isə Azərbaycanın dövlətçiliyin möhkəmləndirilməsi yolu ilə inamla irəliləməsi, sosial-iqtisadi sahələrdə dinamik inkişafın təmin edilməsi, xalqın mənafeyinin ciddi şəkildə qorunması, xalq-iqtidar birliyinin dönməz xarakter alması, beynəlxalq aləmə inteqrasiya güclənməsi, qlobal layihələrin uğurla gerçəkləşdirilir. Bütün bunlara görə narahatlıq hissi keçirən ermənipərəst dairələr əndişələnir, müxtəlif vasitələrlə ölkəmizə təzyiq etməyə çalışır, “beşinci kalon”a maliyyə dəstəyi göstərməklə, habelə digər şirnikləndirici metodlarla ayrı-ayrı siyasi qüvvələri ələ alır, dövləti zəiflətmək, Konstitusiya quruluşunu dəyişmək üçün, necə deyərlər, dəridən-qabıqdan çıxırlar. Ancaq alamırlar ki, belə bir yolla məkrli niyyətin Azərbaycanda reallaşdırılması mümkün deyil. Çünki dövlətimiz ötən əsrin 90-cı illərinin əvvəllərindəki kimi gücsüz, kövrək vəziyyətdə deyil, həm siyasi, həm də iqtisadi cəhətdən güclü, beynəlxalq dairələrdə nüfuz sahibinə çevrilən lider dövlətlərdəndir.

### Avropadakı “söyüş çətəsi”nin ruporu - Vidadi İsgəndərli

Ancaq sifətində həyasızlığın ən çirkin xüsusiyyətləri həkk olunan vaxtı ilə elə min bir dələduzluq yolu ilə prokurorluq orqanlarına yol açaraq, sonradan əməllərinə görə uzuqlaşdırılaraq sərxoş halda əhalinin sıx olduğu yerlərdə ictimai asayişi pozduğuna, dövlət əleyhinə çağırışlar etdiyinə və ayrı-ayrı şəxslərin ünvanına kobud və nalayiq sözlər işlətdiyinə görə həbs olunan və həbsdən azad edildikdən sonra Azərbaycandan qaçaraq Fransada “siyasi mühacir” adı altında məskunlaşan Vidadi İskəndərli müxtəlif vəzifəli şəxslər, siyasi partiya rəhbərləri və ictimaiyyət nümayəndələri haqqında sosial şəbəkələrdən özünü “demokratik hüquq müdafiəçisi” kimi təqdim edərək hər gün böhtan və şantaj xarakterli çıxışlar edir, həqiqətə uyğun olmayan fikirlər səsləndirir və “mənim xalqım, ayılın” deyə “mitinqə çıxın” çağırışlarını elir. Nə vaxta kimi?

V.İsgəndərlini yaxından tanıyan rusiyalı yazar Oleq Nikolayev onun ermənilərdən “qidalandığını” deyərək Ermənistanın keçmiş prezidenti Robert Koçaryanın yaxın qohumu Sergey Akopyan və Rusiyada vəkillik fəaliyyəti ilə məşğul olan Araz Mirzobekyanla bir qrupda oxuduğunu, “dostluq” etdiyini bildirib.

Göründüyü kimi, xalqımız belə üzdəniraq şəxsləri haqlı olaraq Vətən xaini kimi tanıyır və nifrətini bəyan edir. Ermənidən betərlər üçün qranta görə hər şeylərini satanlar “çörəyi dizlərinin üstündədir”. Ona görə də bir-birilərini hər an satmağa adət ediblər. Birinin yalı o birisindən çox olan kimi bir-birilərini ayaqlayırlar.

### Xarici beynəlxalq təşkilatların işlədilmiş alətinə çevrilən və “5-ci kalon” deyilən dələduzlar yığını

Dahilərin ermənilər haqqında dedikləri fikirləri oxuduqca dəhşətli yox, adi hal kimi qəbul edirsən. Çünki dünyada belə bir millət olmayıb, ancaq tör-töküntülərdən əmələ gəliblər. Bu gün Azərbaycanda “müxalifət” də heç onlardan geri qalmırlar - erməni həyasızlığı, təcavüzkarlığı, satqınlığı, alçaqlığı...o qədər həddini aşıb ki... Bu gün özünü “müxalifətçi” adlandıran, satqın, xəyanətkar, xarici beynəlxalq təşkilatların işlədilmiş alətinə çevrilən və “5-ci kalon” deyilən dələduzlar yığını - AXCP sədri Əli Kərimli və onun ipli kuklası, “Milli Şura”nın sədri Cəmil Həsənli, çörəyi dizinin üstündə olan satqın Gültəkin Hacıbəyli, ingilis ruporu, mənəviyyatsız Sevinc Osmanqızı və bu kimi vücudlar dünənə kimi “həmrəylikdən”, xalqa, Vətənə “xidmətdən” danışırdılarsa, bu gün böyük şairimiz Mirzə Ələkbər Sabir demişkən: “çərxi-fələk tərsinə dövran edir”. Özü də yaman edir. Bu, gözlənilən idi. Çünki mayası satqınlıqla yoğrulanların yolu olmur. Elə Əli Kərimli-Sevinc Osmanqızı kimi. Dünənə qədər Əli Kərimliyə mətbuat katibliyi edən Sevinc Osmanqızı AXCP-”Milli Şura” satqınlarına ıqaçıq-aşkar himayə də edirdi. “Bitərəf jurnalist” AXCP sədrinə, yaxud da “Milli Şura” funksionerlərinə haqlı sual ünvanlamaq üçün efirə qoşulan, obyektiv münasibət bildirmək istəyən tamaşaçıların səsini dərhal azaldır, guya bağlantıda problem var bəhanəsi ilə onların səsini kəsir, fikir bildirməsinə mane olurdu. Nəticə nə oldu?

Səbəb nə idi? Səbəbə isə, həmişə olduğu kimi, “hər yerdə mən olmaq” iddiasında olan Ə.Kərimli S.Osmanqızının Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev və Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Mirəlioğlunu efirə qonaq çağırması. Nəticədə “müxalifdəki dostları”ndan - AXCP-”Milli Şura”dakılar S.Osmanqızıya hücumlar edərək “səni çökdürəcəyik” sözləri ilə təhdid etmələri oldu. Bu isə, S.Osmanqızının, necə deyərlər, “lap cızdığını çıxardı”. Niyə, Sevinc Osmanqızı? İkinizdə erməni yalağından su içənlər deyilsiniz? Bilmirdiniz ki, Əli Kərimli üzü Əbülfəz Elçibəydən bu tərəfə kimlərə xəyanət edib. Bütün bundardan sonra: “Yaxşı ki, bütün bunları gördüm”,-deyərək özünə təsəlli verən Sevinc Osmanqızı ziyanın yarısından geri dönməyin də xeyir olduğu qənaətinə gəldiyinizi düşünürsünüz? Təəssüf, heç sən ondan geri qalmayacaqsan. İstər Sevinc Osmanqızı olsun, istər Əli Kərimlisi, Cəmil Həsənlisi, Gültəkin Hacıbəylisi, Qənimət Zahidi, Leyla Yunusu...bilməlidirlər ki, şübhəsiz ki, belə bir yolla məkrli niyyətin Azərbaycanda reallaşdırılması mümkün deyil. Çünki dövlətimiz ötən əsrin 90-cı illərinin əvvəllərindəki kimi gücsüz, kövrək vəziyyətdə deyil, həm siyasi, həm də iqtisadi cəhətdən güclü, beynəlxalq dairələrdə nüfuz sahibinə çevrilən lider dövlətlərdəndir.

Amma bu, bir reallıqdır ki, xaricdə oturub erməni dəyirmanına su tökmək, Azərbaycan dövləti haqqında qərəzli fikirlər səsləndirmək, təxribatçı video-roliklərlə cəmiyyətimizdə çaşqınlıq yaratmağa cəhd etmək istəyən, bütün vücudu erməniləşən satqın Əli Kərimli, ingilisdilli əyalət tribunası S.Osmanqızı, əxlaqsız Qənimət Zahid, mənəviyyatsız Vidadi İsgəkdərli və bu kimi dələduzlar anlamalıdır ki, Azərbaycanda onlara yer yoxdur və Azərbaycan xalqı bələlərini çoxdan arxivin iylənmiş arxivə tullayıb. Çünki onların əsl mahiyyəti alət olmaqdır və öz istifadə müddətlərini çoxdan bitiriblər. Bir də haraya qədər?...

**Rəfiqə HÜSEYNOVA**

# Natiq Cəfərli Tofiq Yaqublunun qarşısına fakt qoydu

SÖYÜŞ+TƏHQİR




### REAL funksioneri: “Xalq Cəbhəsinin gənclər təşkilatının gəncləri atama qədər söyüblər, təhqir ediblər, əlimdə sübutlar var”

REAL partiyasının icraçı katibi Natiq Cəfərli “Milli Şura”nın kordinasiya mərkəzinin üzvü, Müsavat partiyasını təmsil etməsinə baxmayaraq, daha çox AXCP sədri Əli Kərimlinin yanında dolaşan Tofiq Yaqublu ilə müxalifətin sosial şəbəkə vasitəsi ilə yayımladığı “Azad söz” kanalında debata çıxıb. SİA xəbər verir ki, REAL funksioneri bu dəfə mövzunu söyüşlərə yönəldərək, “Milli Şura”, AXCP üzvlərinin, xüsusilə gənclər təşkilatının təhqirli rəylər yazdıqlarını bildirib, hətta özünün, ailə üzvlərinin də söyüşlərin hədəfinə tuş gəldiyini deyib.

“İstənilən yazdığınız statusların hər birində təhqirin biri-bir qəpikdir. “Milli Şura”nın paylaşdığı videoları da bunu göstərir. Bu gün mənə scrren shot-ları göndəriblər”, deyən Natiq Cəfərli həmçinin Tofiq Yaqubluya xitabən bildirib ki, hələ də onun hansı siyasi təşkilatın üzvü olduğunu müəyyən edə bilmir.

### “Bilmirəm ki, “Milli Şura”nın üzvüsünüz, yoxsa Müsavatın”

“Düzü heç bilmirəm siz “Milli Şura”d daha çoxsunuz, yoxsa Müsavat partiyasında. Ona görə də bilmirəm sizə necə müraciət edim. Müsavat partiyası ilə bizim belə problemimiz yoxdur”, REAL-ın icraçı katibi deyib.

Natiq Cəfərli bildirib ki, belə devam etmək olmaz: “Xalq Cəbhəsinin gənclər təşkilatının gəncləri atama qədər söyüblər, təhqir ediblər, əlimdə sübutlar var, scrren shot-ları göndərə bilərəm”.

Maraqlı məqam isə budur ki, debat zamanı REAL-çı funksionerin əsaslı ittiham və iradlarına baxmayaraq, Tofiq Yaqublu “qoy olsun” deyərək, söyüş və təhqirlərin tərəfdarı olduğunu gizlətməyib. Bu cür düşüncə isə onun və təmsil olunduğu sözdə müxalifət cinahının əslində heç bir normal düşüncəyə, davranışa sahib olmadıqlarını, tərbiyəsizliklərini bir daha isbatlamış olur.

**Rövşən RƏSULOV**



# Anti-Azərbaycan qüvvələrin cinayət əməlləri...

## Belələrinə qarşı xalqın cəzası böyük olacaq....

***Azərbaycan hakimiyyətinin dövlətimizi dünyada baş verən qlobal maliyyə-iqtisadi böhrandan az itkilərlə çıxarması, dinamik inkişafını yenidən təmin etməsi və xalqın maraqlarını müdafiə edərək onun sosial rifah halını daha da yüksəltməsi, nəhayət 44 günlük İkinci Vətən müharibəsini qələbəsi anti-Azərbaycan dairələrini çox narahat edir. Ona görə də, ölkəmizdə ictimai-siyasi sabitliyi pozmaq, inkişaf proseslərinin qarşısını almaq üçün "beşinci kolon"dan istifadə edirlər.***

İtimai rəyi mənfi tonda yükləmək və ölkəmizin əldə etdiyi nailiyyətləri, uğurları ləkələmək, xalqımızın firavan və sakit yaşayışına mane olmaq üçün anti-Azərbaycan qüvvələri Əli Kərimlini ölkəmizin inkişafına qarşı "əylənc mexanizmi"kimi istifadə edirlər. Əli Kərimli Avropada və ABŞ-da qrantlar hesabına maliyyələşdirilən Sevinc Osmanqızı, Qənimət Zahid kimi anti-milli ünsürlərin internet kanallarında ona verilmiş tezislər əsasında çıxışlar edir, müəyyən məbləğlər qarşılığında trolların antimilli fəaliyyətini təşkil edir, erməni mətbuatı və lobbisi ilə sinxron işlər görülür, əsassız və qondarma iddialar üzrə mitinqlərə çağırışlar edilir. Sözsüz ki, hər zaman xalqımız tərəfindən belə çağrışlar rəd edilir və tələb olunur ki, etdikləri əməllərinə görə cəzalandırılsın.

Antimilli şura öz xain, satqın missiyasını müharibə dövründə də öz mənfur simasını göstərdi

Bu o antimilli "şura"dır ki, hər bir uğura ləkə yağdırmaq üçün dəridən-qabıqdan çıxırlar. 28 ildir ki, bu radikal müxalifət elə zənn edir ki, Qarabağ kartından istifadə edib nə vaxtsa hakimiyyətə gələ biləcəklər. Ancaq b gün Azərbaycan hakimiyyətinə qarşı əsassız ittihamlarla çıxış edənlər yaddan çıxarmamalıdır ki, vaxtilə məhz onların səriştəsizliyi, bacarıqsızlığı nəticəsində Azərbaycan kapitulyasiya vəziyyətinə düşmüş, Dağlıq Qarabağ və ətraf rayonlar itirilmişdir.

Bütövlükdə torpaqlarımızın işğal altına düşməsində əsas günahkar Azərbaycan Xalq Cəbhəsidir. 1992-ci ilin yaz aylarında hakimiyyət uğrunda aparılan mübarizənin pik həddə çatması siyasi böhran yaratdı və bu çox ciddi fəsadlara gətirib çıxardı. Ermənistan isə bundan istifadə edərək torpaqlarımızı zəbt etməyə davam edirdi. Şuşa və Laçının işğal altına düşməsindən sonra vəziyyət kritik həddə çatdı. Bundan istifadə edən Azərbaycan Xalq Cəbhəsi dövlət çevrilişi edərək hakimiyyətə gəldi. O zaman iqtidarda olanlar bütün səylərini öz laxlamış hakimiyyətini möhkəmləndirməyə, ölkəmizdə repressiyalar təşkil etməyə, senzura tətbiq etməyə və digər antidemokratik addımlar atmağa yönəltdi. Nəticədə də torpaqlarımız işğala məruz qaldı, mülki əhalimiz öz dədə-baba torpaqlarından didərgin salındı. Məhz onların yaratdığı xaos, siyasi böhran, özbaşınalıq 1993-cü ilin aprelində Kəlbəcərin də ermənilər tərəfindən işğal edilməsi ilə nəticələndi.

Və bu gün özülərini "lider" sayan Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Vidadi İskəndərli, Sevinc Osmanqız və digər buk imi ünsürlərin həyasızcasına yenidən ortaya çıxaraq, bu həyasızlaşmış radikal ünsürlər yenidən anti-azərbaycançı dairələrdən aldıqları sifarişlər əsasında xalqın, dövlətin əldə etdiyi möhtəşəm qələbəyə ləkə vurmağa çalışırlar. Bu adamların illərdir Azərbaycan dövlətinin maraqlarına qarşı fəaliyyət göstərən ermənipərəst dairələrlə əməkdaşlıqlarına şübhə yoxdur. Hazırkı məqamda isə həmin əməkdaşlığı davam etdirmək, xüsusilə Qarabağ zəfərimizə qarşı ermənilər qədər düşmən mövqeyi nümayiş etdirmək düşüncəsindədirlər. Onlar sevinib və dizə gələrək təşəkkür etməlidirlər ki, məhz Azərbaycan dövlət başçısının qətiyyəti və ordumuzun gücü sayəsində əldə olunan qalibiyyət radikalların səriştəsizliyi nəticəsində 27 il əvvəl uğradığımız satqın, xain məğlubiyyətin bitməsinə yol açdı. Və zaman-zaman bir-birilərinə xəyanət edən anti-Azərbaycan qüvvələrin "əyləc mexanizmi" olan Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Vidadi İskəndərli, Sevinc Osmanqızı və bu kimi digər ünsürlər bilməlidirlər ki, sonda, daha doğrusu artıq ayaqqabıları belə silməyə lazım olmayan tryapkalardır.

Bax, budur həqiqət. Belələrinə qarşı xalqın cəzası böyük olacaq, cəmiyyətdən təcrid olunmalarını tələb edəcək.

**R.HÜSEYNOVA**

# Ermənistanda etirazçılar yenə yolları bağlayıb

Ermənistan hökuməti tərəfindən qondarma olaraq əsir adlandırılan, əslində isə Ermənistan tərəfinin kapitulyasiya sənədini imzalamasından sonra Azərbaycan ərazisinə qanunsuz yollarla daxil olan, terror və təxribatlar törədən terrorçuların yaxınları Şirak bölgəsindəki yolları bağlayıblar. SİA xəbər verir ki, bu barədə Sputnik Ermənistan məlumat yayıb.





Məlumatda bildirilir ki, İrəvana və Vanadzora gedən yolları bağlayan etirazçıların tək tələbi qohumlarının geri qaytarılmasıdır. Həmçinin nəzərə çatdırılır ki, Azərbaycan ərazisinə qanunsuz yollarla keçən və saxlanılan terrorçuların qohumları olan etirazçılar Şirak bölgəsindəki yolları, Gümrü-İrəvan yollarını, eləcə də Aşotk və Vanadzora gedən yolları bağlayıblar.

"Tələbimiz birdir və bu da sevdiklərimizin, qohumlarımızın qaytarılmasıdır, başqa tələbimiz yoxdur", deyə etirazçılardan biri Sputnik Ermənistana bildirib.

Xatırladaq ki, Şirakdan olan bir neçə terrorist, hansıki, Ermənistanın kapitulyasiya sənədini imzalamasından sonra qanunsuz şəkildə Azərbaycan torpaqlarına daxil oilmuş və bir sıra terror əməlləri törətmişdilər, dekabrın 16-da Dağlıq Qarabağ ərazisində yaxalanmışdılar.



Diqqətə çatdıraq ki, bu terrorçuları Ermənistan tərəfi hərbi əsir adlandırmağa cəhd edir və bu barədə hay-küy salmaq istəyir, amma, onu da nəzərə çatdıraq ki, hərbi əsirlər hərbi əməliyyatların getdiyi dövrdə tutulanlar hesab olunur və bu baxımdan həmin terrorçuları hərbi əsir adlandırmaq olmaz. Qeyd edək ki, saxlanılan, tutulan terrorçular beynəlxalq hüququn norma və prinsplərinə müvafiq olaraq ittiham olunur və kapitulyasiya sənədində qeyd edildiyi kimi, əsirlərin geri qaytarılması kimi maddəsi ilə qarşı tərəf onları təhvil verilməsini tələb edə bilməz.

Görünür, Ermənistan hakimiyyəti hərbi əsir adı verməyə çalışdığı, əslində isə göndərdiyi terrorçularına və terrorçuluq əməllərinə don geyindirmək niyyətindədir. Beləki, kapitulyasiya sənədinə imza atdıqdan sonra terrorçuları qarşı tərəfin ərazisinə göndərən Ermənistan tərəfi beynəlxalq təşkilatlar qarşısında buna görə cavabdehlik daşıdığının fərqindədir və məhz buna görə onları hərbi əsir kimi adlandırmağa cəhd edir. Onu da diqqətə çatdıraq ki, erməni cəmiyyətində tutulanlarla bağlı narazılıqlar, etirazlar səngimək bilmir və daxili auditoriyanı sakitləşdirmək niyyəti ilə Ermənistan hakimiyyəti məsələyə özlərinə lazım olan rakursda yanaşır. Bir sözlə, hərbi əsir məsələsi Ermənistan səlahiyyətlilərinin öz hakimiyyətini qoruması üçün daxili auditoriyaya hesablanmış fərziyyəsindən və beynəlxalq aləmi aldatmaq cəhdindən başqa bir şey deyil.

***İnam Hacıyev***

# Onlayn təhsil "Nar"ın "TƏHSİL+" internet paketi ilə daha rahatdır!




Təhsilini onlayn qaydada davam etdirən tələbə, şagird və müəllimlər "Nar"ın təqdim etdiyi sərfəli "TƏHSİL+" internet paketindən yararlana bilərlər. İnternet paketi "Microsoft Teams" və "Zoom" kimi platformaları bir paketdə birləşdirməklə istənilən məkanda onlayn təhsilə imkan yaradır. Abunəçilər heç bir sürət limiti olmadan, istər tətbiq, istərsə də veb-brauzer üzərindən hər iki tətbiqdən istifadə edə bilərlər.

Qeyd edək ki, paket abunəçilərə cəmi 10 AZN ödəməklə sürət limiti olmayan 50GB təqdim edir. Sərfəli internet paketindən yararlanmaq üçün abunəçilər *777#21# kodunu yığa və ya 777 nömrəsinə "T+" açar sözünü göndərərək paketi aktivləşdirə bilərlər. Qeyd edək ki, "TƏHSİL+" internet paketini "hotspot" funksiyası vasitəsilə paylaşmaq mümkündür. "TƏHSİL+" internet paketi haqqında ətraflı məlumat http://www.nar.az/tehsil-plus/ səhifəsindən əldə etmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda 8700-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.



Moskva görüşündə Rusiya prezidenti Vladimir Putin ilə Ermənistanın baş naziri Nikol Paşinyan arasında danışıqlar aparıldı. Görüş Ermənistan hökuməti başçısının keçən ilin noyabrında Rusiya və Azərbaycan liderləri ilə üçtərəfli qaydada Qarabağ münaqişəsinin nizamlanmasına dair bəyanat imzalanması ilə meydana çıxan Ermənistan Respublikasında gözlənilən erkən parlament seçkiləri fonunda baş verdi.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanı.*

# Markov: Putin bunu Paşinyanın ağlının başına gəlməsi üçün etdi

## *Politoloq: Moskvada hər iki erməni liderə xəbərdarlıq olundu ki..."*

Mütəxəssislərin görüş ərəfəsində qeyd etdiyi kimi, Paşinyan bu şəkildə seçki kampaniyasına başladı və Moskvanın dəstəyini almağa cəhd etdi. Mütəxəssislərin fikrincə, Paşinyan üçün müharibədəki məğlubiyyət və bu amilin ona qarşı müxalifət tərəfindən istifadəsi fonunda bu, sözün əsl mənasında, həyati əhəmiyyət daşıyır, çünki Paşinyanın partiyasının qalib gəlməyəcəyi halda, onun taleyinin necə ola biləcəyi məlum deyil.

Ermənistan baş nazirinin özünün dediyinə görə (Kreml heç bir yekun açıqlama vermədi), Rusiya lideri ilə görüş 3,5 saat davam etdi və baş nazir bundan razıdır. Danışıqlarda Rusiya-Ermənistan əməkdaşlığının bütün spektri müzakirə edildi. Ermənistanın baş naziri xahişlərlə müraciət etdi - koronavirusa qarşı bir milyondan çox peyvənd tədarükündən başlayaraq Rusiya tərəfindən Ermənistanda bir atom elektrik stansiyası tikilməsinə qədər. Bundan əlavə, Paşinyan Putinlə Rusiya liderinin "təhlükəsizlik sistemlərinin arxitekturasına dair: Dağlıq Qarabağda, ətrafında, Ermənistanda və ümumilikdə bölgəmizdə" fikirlərini müzakirə etmək planlarını açıqladı. Həm də "Rusiya-Ermənistan ortaq qüvvələr qrupunun fəaliyyətinin bəzi nüanslarını".

Paşinyan Azərbaycanda terrorçu və təxribatçı kimi tanınan erməni "əsirləri" mövzusuna toxunmağı da unutmadı. Buna cavab olaraq Rusiya Prezidenti qeyd etdi: "Müzakirə üçün zəruri hesab etdiyiniz bütün məsələləri diqqətlə nəzərdən keçirəcəyik." Ancaq Putin əlavə etdi ki, "hər şeydən əvvəl, ən aktual və kəskin problemin Dağlıq Qarabağdakı və onun ətrafındakı vəziyyətin normallaşması" olduğunu və "ən vacib komponentin ticarət-iqtisadi əlaqələrin və nəqliyyat yollarının bərpasının Ermənistanın inkişafı üçün yeni imkanlar yaratmasını" başa düşməkdir.

Paşinyan Putinlə danışıqlardan sonra Moskvada Erməni Hüquqşünaslar Birliyinin üzvləri ilə keçirdiyi görüşdə "müharibədən sonra gündəmimizdəki ən vacib məsələlərdən biri rus tərəfdaşlarımızın dəstəyi həyata keçirdiyimiz ordu və silahlı qüvvələrin islahatıdır".

Putinlə Paşinyan arasındakı görüşün intriqası həm də onunla assosiasiya olunur ki, ondan bir neçə gün əvvəl Rusiya Prezidenti ilə hələ 2-ci Qarabağ müharibəsindən əvvəldən Paşinyanın əsas rəqiblərindən biri sayılan Ermənistanın keçmiş lideri Robert Köçəryan arasında video formatında danışıqlar aparıldı.

Hər halda Kreml Putinlə Köçəryan arasında aparılan danışıqlar faktını təsdiqlədi. Maraqlıdır ki, Köçəryan bu yaxınlarda konstitusiya quruluşunu devirməkdə günahlandırıldığı 1 Mart 2008-ci ildə bəraət almışdı. Xatırladaq ki, 2008-ci ildə Köçəryan o zamankı prezident vəzifəsini icra edən şəxs olaraq prezidentliyə namizəd Ter-Petrosyanın tərəfdarları tərəfindən təşkil edilən etiraz mitinqini dağıtmaq üçün icazə vermişdi. Etirazçılar arasında etiraz aksiyası nəticəsində axtarışa verilmiş Nikol Paşinyan da var idi.

2010-cu ildə Paşinyan kütləvi iğtişaşlar təşkil etmək ittihamı ilə 7 il həbs cəzasına məhkum edildi. Mütəxəssislərin fikrincə, Paşinyan Köçəryanı baş verənlərə görə bağışlaya bilməyib və qarşısına eks-prezidenti həbs etmək məqsədini qoyub. Nəticədə, Robert Koçaryan 2018-ci ildə iki dəfə həbs olundu. 2019-cu ilin iyun ayında üçüncü dəfə nəzarətə alındı. Və 2020-ci ilin iyun ayında girov müqabilində sərbəst buraxıldı. Paşinyanın özünün Köçəryanı həbs etmək istədiyi düşünülür.

Putin və Paşinyan arasındakı danışıqların nəticələri və Rusiya prezidentinin Robert Koçaryanla niyə görüşdüyünü - "Moskva-Bakı" platformasına Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov belə şərh edib.

"Həm Paşinyan, həm də Koçaryan Putinin onları dəstəkləməsini istəyir. Həm Koçaryan, həm də Paşinyan Ermənistanı çıxılmaz vəziyyətə saldı, Qarabağ müharibəsində məğlubiyyətə gətirib çıxardı. İndi Ermənistan əhalisi dəhşətli bir depressiyadadır və nə birini, nə də digərini istəmir. Hamı Vladimir Putinin kimi dəstəkləyəcəyini gözləyir və Putin heç kimə dəstəkləmək istəmir, çünki Paşinyan bu gün üçtərəfli bəyanatın şərtlərini yerinə yetirsə də və Azərbaycanla sülhə yönəlmiş açıqlamalar versə də, Amerika tərəfdarıdır və bu da pisdir. Koçaryan rusiyapərəstdir, Vladimir Putinlə şəxsi dostluq münasibətləri var, ancaq Qarabağda qisas almaq fikrinin daşıyıcısıdır və Rusiyada əhalinin onu dəstəkləmədiyini görürlər.Bu şərtlərdə Rusiya prezidenti həm Paşinyana, həm də Koçaryana deyir ki, uşaqlar, biz hər ikinizlə işləməyə hazırıq, ona görə deyə bilərik ki, Ermənistandakı seçkilər ərəfəsində bu tur hər ikiniz üçün heç-heçə ilə başa çatdı.

Eyni zamanda, Ermənistandakı seçkilərdə indiki Baş nazir Nikol Paşinyanın qalib gələcəyi ehtimalı böyükdür. Rəy sorğuları onun populyarlığının Köçəryandan daha yüksək olduğunu göstərdi. Əlbətdə ki, Qarabağla bağlı üçtərəfli razılaşmanın həyata keçirilməsi üçün Paşinyan Koçaryandan qat-qat üstündür. Koçaryandan fərqli olaraq həmişə kompromis tərəfdarı olub. Koçaryan öz-özlüyündə onsuz da Qarabağdakı qisas fikrini özündə cəmləşdirən "Qarabağ klanı"na aiddir, Paşinyan isə yox. Köçəryan ilk daşıyıcıdır və müharibəni həyata keçirən biridir. Paşinyan bu gün sazişin həyata keçirilməli olduğunu deyir, Koçaryan onu yenidən nəzərdən keçirməli olduğuna işarə edir. O zaman Qarabağdakı müharibədəki məğlubiyyətdə yalnız Paşinyan günahkar deyil. Ordudakı vəziyyətin bu dərəcədə bərbad olmasında Sarkisyan və Köçəryan günahkardır.

Prinsipcə, Rusiya prezidenti nə Paşinyan, nə də Koçaryanla görüşə bilmədi. Ancaq Paşinyanla birbaşa, Koçaryanla videorabitə ilə görüşlər oldu. Bu görüşlər də bir dəstək formasıdır.

Kremlin Putinlə Koçaryan arasındakı görüşü ictimai məkana gətirməsi Paşinyanın ağlının başına gəlməsi üçün edildi ki, amerikapərəst fəndlərinə yenidən başlayacağı təqdirdə Moskvanın istiqamətini tez bir zamanda dəyişdirəcək.

Əslində, Moskvanın İrəvanda başqasına ehtiyacı var. Həm Rusiyapərəst, həm də uğurlu bir "öz siyasətçisinə" sahib olmaq və sülh müqaviləsini yerinə yetirmək istərdi. Ancaq hələ belə şəxs yoxdur. Yaxşı bir söz var: "Siyasətçilərin, dövlət adamlarının vəzifəsi cənnəti yaratmaq deyil, cəhənnəmin qarşısını almaqdır." Və bu vəziyyət üçün çox yaxşı uyğun gəlir. Putin Ermənistanda ideal siyasətçilərə ümid etmir, nə var onunla kifayətlənir.

Koçaryanın hakimiyyətə gəlməsi Qarabağla bağlı bəyanatı yerinə yetirmək üçün təhlükəlidirmi? Heç kim onun gəlməyəcəyinə zəmanət verə bilməz. Koçaryan mahiyyətcə belə bir razılığın əleyhinə olduğunu söyləyir. Ancaq bu açıqlaması ilə seçiciləri hədəf alır. Seçicilər Ermənistanın hərbi məğlubiyyətinə işarə edən bu razılığa qəzəblidirlər. Və onu yenidən oynamaq istəyərdilər. Sülhün Qarabağ müharibəsinin ayrılmaz bir hissəsidir, ocağa od vuranlardan biridir, Paşinyan isə ilk növbədə bütün bunlardan uzaqdır. Paşinyan sülh müqaviləsi imzaladı, Koçaryan isə əksinə ideoloji lazım olduğunu başa düşənlər var. Düşünürəm ki, Köçəryan hakimiyyətə gəlsə belə, bu müqaviləni poza bilməz. Bu barədə Moskvada ona sadəcə xəbərdarlıq olundu ki, bu, edilməməlidir.

Eyni zamanda, düşünürəm ki, Koçaryanın vəzifəsi heç olmasa Ermənistanın Qarabağda qoyduqlarını qorumaq olacaq. Ermənistan Qarabağın 30%-i üzərində nəzarəti qorumağa çalışacaq. Axı ərazinin qalan 30 faizini kimin idarə edəcəyi ilə bağlı qarşıdurmanın hələ də qaldığını inkar edə bilmərik. Müharibə dayandırıldı, ərazilərin çoxu Azərbaycana qaytarıldı. Amma əslində siyasi formada qarşıdurma qalan torpaqlar üzərində davam edəcəkdir.

Moskva üçün heç bir qırğın olmaması, azərbaycanlıların və ermənilərin bir-birini öldürməməsi vacibdir. Bu səbəbdən Kreml bölgədəki sabitliyi qorumaq məsələsinə çox diqqətlə yanaşacaq və Ermənistanda hakimiyyətə gələn hər hansı bir qüvvədən razılığa uymasını tələb edəcək.

Putinlə Paşinyan arasında Moskvada aparılan danışıqların ikitərəfli gündəliyinə gəlincə, bu, ikitərəfli mövzularda tipik bir dialoq idi. Ermənistan Rusiyanın müttəfiqidir və burada heç nə dəyişmir. Rusiya da Ermənistanla Azərbaycan arasında diqqətlə tarazlıq yaradacaq. Bu baxımdan, Paşinyana görə, Rusiya lideri ilə danışıqlarda qaldırılan məsələ - Rusiyanın Ermənistan ordusunun islahatında iştirak etməsi- burada ikitərəfli əməkdaşlıq çərçivəsindən kənar bir şey görmürəm. Rusiya Ermənistana KTMT üzvü kimi yardım göstərir (Azərbaycan KTMT-yə daxil deyildi), üstəlik, Rusiya kömək istəyənlərə kömək edir. Azərbaycan da strateji tərəfdaş olaraq hər hansı bir formada kömək istəsə, Rusiya yardım göstərəcəkdir. Ermənistan və Azərbaycanla münasibətlərdəki tarazlıq Rusiya üçün vacibdir".

***Hazırladı - Nana Xoştariya***
***Tərcümə - Elçin Bayramlı***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

10 aprel

# SƏS

Son səhifə

## Rusiyada 104 yaşlı müharibə veteranı koronavirusa qalib gəldi



**Böyük Vətən Müharibəsində Berlinin alınmasının 104 yaşlı iştirakçısı koronavirusu məğlub etdi.** SİA Pravda qəzetinə istinadən xəbər verir ki, Çelyabinsk sakini Əhməd ??Rafiqov Regional Səhiyyə Nazirliyinin bir xəstəxanasında COVID-19 müalicəsi alıb.

"Yoluxucu xəstəliklər şöbəsinə qəbul edildikdə, xəstə ilə bağlı narahatlıqlar yarandı, çünki yaşın çoxluğu ilə yanaşı əlavə xəstəliklər də var idi. Ancaq vəziyyəti sabitləşdi, sonra test nəticələri məlum oldu və vəziyyəti normallaşdı"- deyə yerli xəstəxananın yoluxucu xəstəliklər şöbəsinin həkimi Marqarita Sorokina izah edib. Əhməd Rafiqov xəstəxanadan çıxıb və hazırda ailəsi ilə birlikdə evdədir. O, Böyük Vətən Müharibəsi dövründə Berlinin alınmasında, həmçinin Polşa və Belorusiyanın faşistlərdən azad edilməsi əməliyyatlarında iştirak edib.

Qəhrəmanlığına görə Əhməd Mahmud oğlu Rafiqov 1-ci dərəcəli Vətən Müharibəsi ordeni, Qırmızı Ulduz ordeni, İgidliyə görə, Hərbi Xidmətə görə, Varşavanı azad edilməsinə, Berlinin alınmasına görə, Almaniya üzərində zəfərqələbəyə görə və bir çox digər dövlət mükafatları alıb. Sonrakı dövrlərdə M.Cəlil adına ədəbi dərnəyin üzvü olub. Bir çox qəzet və jurnallarda, şeirlər toplusunda şeirləri dərc edilib. Şeirlərinə mahnı bəstələnir və oxunur.

***Elçin***

## Koronavirus peyvəndi xərçəng xəstələri üçün risklidirmi?


© picture-alliance/dpa/S. Warren

***Pandemiya şəraitində mübarizə apararkən müxtəlif məhdudiyyətlər olsa da bir çox xəstəliyin müalicəsi davam edir. Həkimlər mövzu ilə ətraflı şəkildə məşğul olublar. SİA-nın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, həkim Turqut İpek, "Bu məsələ onkoloji şurada qiymətləndirilib. Xəstələrimiz üçün əlavə yan təsirlər yoxdur. Xərçəng xəstələrimiz asanlıqla Covid-19 peyvəndi ola bilirlər"-deyib.***

### Xəstələr virusun öhtəsindən gəldi

Pandemiya səbəbi ilə əməliyyat əsnasında heç bir cərrahi problem yaşamadıqlarını söyləyən prof.dr. İpek bunları da söylədi: "Onkoloji xəstələrimiz arasından Covid-19 olanlar uğurla sağ qaldılar. Ümumiyyətlə, onkoloji xəstələrdə pandemiya dövrü bizi narahat etməyib. Xəstəxanada bu riski aradan qaldırmaq üçün hər cür tədbir görmüşük. Xəstələrin müalicə olunduğu ərazilər daha diqqətlə qurulub və bu sahələrdən məsul işçilər seçilib. Bu xəstələrin immunitet sisteminin daha çox zərər gördüyü düşünüldüyü üçün, yoluxma riskindən maksimum qoruyuruq. Müalicə sonrası nəzarət müddətlərini də onlara zərər verməyəcək şəkildə planlaşdırıb, idarə edirik".

### Xroniki xəstələr mülicədən yayınırlar

Həkim son olaraq da onu deyib ki, digər xroniki xəstəlikləri olan insanlar pandemiya şərtləri səbəbi ilə xəstəxanaya gəlməkdə çətinlik çəkirlər: "Təəssüf ki, xroniki xəstəlikləri olan xəstələrimiz yoluxma riskini nəzərə alaraq həkim nəzarətinə əməl etmir. Xərçəng xəstələri isə bunu etmirlər. Onlar xərçəngin ölümlə sona çatacaq bir xəstəlik olduğunu bildikləri üçün daha diqqətli olurlar".

"Diabet, qan təzyiqi, ürək və ağciyər problemləri olan xəstələr "indi getməyək, daha sonra gedərik" yanaşma içindədirlər. Lakin, bu pandemiya dövrünün müddətini uzatmaqdan başqa bir işə yarayamayacaq. Xroniki xəstələr həkimlərinin nəzarəti altında olmalıdırlar".

***Ayşən Vəli***

## ŞOK İTTİHAM: "Azərbaycanda bütün duet ortaqları eşq yaşayır"



Müğənni Mənzurə Musayeva duet ortaqları haqqında qalmaqallı açıqlama verib. SİA-nın məlumatına görə, ifaçı bu haqda verilişlərin birində danışıb: "Bütün duet ortaqları eşq yaşayır, bəsdirin, belə iş olar? Hamısını öyrənirsən ki, eşq yaşayır. Eşq bitdi, gedib onun acığına başqa qız gətirir oxuyur. Qız da gedib başqa oğlan tapıb gətirir. Qızların çoxu sədaqətli olur. Oğlanlar isə yox".

Onun bu sözlərinə proqramda qonaq olan həmkarıTürkan Vəlizadə etiraz edib. O, bir vaxtlar duet oxuduğu meyxanaçı Pərviz Bülbülə ilə heç bir eşq yaşamadığını bildirib: "Pərvizin gözəl ailəsi var. Hər duet oxuyan eşq yaşamır. Mənzurə xanımın bu sözlərinə qatılmıram".

## Bakı aeroportunda 200 min manatlıq brilyant aşkarlandı



Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin əməkdaşları tərəfindən külli miqdarda brilyant qaşların qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsinin qarşısı alınıb.

Dövlət Gömrük Komitəsindən Trend-ə verilən məlumata görə, belə ki, İstanbul-Bakı aviareysilə gələn Azərbaycan Respublikasının vətəndaşına məxsus çamadan Heydər Əliyev Beynəlxalq Aeroportunda rentgen aparatından keçirilən zaman monitorda şübhəli əşyaların təsviri müşahidə edilib. Daha sonra vətəndaş yoxlama otağına dəvət olunub. Yoxlama zamanı vətəndaşa məxsus çamadanda olan "Tiffany Glucose" peçenye paketlərinin içərisində, ümumilikdə 10 ədəd sellofan bükümdə müxtəlif ölçülü 441 qram brilyant qaşlar aşkar edilib. Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin rəyinə əsasən, aşkar olunan brilyant qaşların ümumi kütləsi 2171 karat, orta qiyməti, təxminən 224 min manat təşkil edir. Faktla bağlı araşdırma aparılır.

## BAŞSAĞLIĞI

"SƏS" Media Qrupunun kollektivi adından baş redaktor Bəhruz Quliyev, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Məmmədova atası Baba müəllimin vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

## Evdən on min manatlıq qızıl oğurlandı



Oğurluqda şübhəli bilinən Bakı şəhər sakinləri Ü.Hacıyev və R.Cavadov saxlanılıblar. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Xətai RPİ 35-ci və 36-cı PB əməkdaşlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində aprelin 3-də rayon ərazisindəki bir evdən 10000 manat dəyərində qızıl-zinət əşyaları, digər evdən isə mobil telefon oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakinləri, əvvəllər məhkum olunmuşlar - Ü.Hacıyev və R.Cavadov saxlanılıblar.

***Gülyana***

*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600